HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 14 (908) ■ 18 aprel 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarını elan edib

Aprelin 17-də Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib. İclasda 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsi hakimlərin məruzələrini, maraqlı subyektin qanuni nümayəndələrinin çıxışlarını, ekspertlərin rəylərini dinləyib, işin materiallarına baxaraq, 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarının təsdiq və rəsmən elan olunmasına dair qərar qəbul edib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev qərarı oxuyub. Qərarda deyilir ki, 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli protokolunda əks etdirilmiş nəticələr təsdiq edilsin.

Azərbaycan Respublikasının prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

Konstitusiya Məhkəməsinin bu qərarı elan olunduğu gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya vəzifəli şəxs tərəfindən ləğv edilə, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Fərhad Abdullayev Konstitusiya Məhkəməsi Plenumunun iclasını bağlı elan edib.

İclasda Milli Məclisin deputatları, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.



# Prezident İlham Əliyev: «Azərbaycan xalqı sülhə, tərəqqiyə, xoşbəxt gələcəyə səs verdi»

**Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda möhtəşəm konsert proqramı təşkil olunub. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.**



Minlərlə insanın qatıldığı tədbirdə öz ürək sözlərini demək üçün səhnəyə çıxan Prezident İlham Əliyev ona göstərilən ümumxalq dəstəyinə görə Azərbaycan xalqına təşəkkürünü bildirib: «Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm, bu dəstəyə arxalanmışam. Mənim fəaliyyətimdə Azərbaycan xalqının dəstəyi əsas rol oynayır. Həmişə çalışmışam ki, xalqa sədaqətlə, ləyaqətlə xidmət edim.

Azərbaycan xalqı dünən öz seçimini etdi. Azərbaycan xalqı dünən bir daha bizim siyasətimizə öz səsini verdi. Bir daha sabitliyə, inkişafa, tərəqqiyə, müstəqil siyasətimizə səs verdi. Sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu gün ən yüksək zirvələrə çatıbdır. Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq bir ölkədir. Daxili vəziyyətimiz sabitdir. Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır. Bütün azadlıqlar təmin olunur.

Dünən keçirilmiş prezident seçkiləri bir daha onu göstərir ki, Azərbaycanda bütün azadlıqlar təmin olunur, Azərbaycan demokratiya yolu ilə uğurla gedir. Açıq, şəffaf, ədalətli şəkildə keçirilmiş seçkilər Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Seçkilərdə mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha böyük güc verir. Seçkilərdə xalqımız həm görülən işlərə, real nəticələrə, eyni zamanda, bizim gələcəyimizə, xoşbəxt gələcəyimizə səs vermişdir. Əminəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək. Bundan sonra da Azərbaycan xalqı sabitlik, təhlükəsizlik şəraitində yaşayacaq.

Bu gün Azərbaycan dünya miqyasında sabitlik adası kimi tanınır. Azərbaycan dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər nəticə göstərən ölkə olmamışdır.

Azərbaycan xalqı öz seçimini etdi. Biz hamımız çalışmalıyıq ki, bundan sonra da ölkəmizi gücləndirək. Bu gün də Azərbaycan güclü dövlətdir. Daha güclü dövlət qurmalıyıq. Daha güclü Azərbaycan qurmalıyıq. Yolumuz müstəqillik yoludur. Heç bir kənar qüvvə bizi bu yoldan döndərə bilməz. Bu yol Azərbaycan xalqının şüurlu seçimidir. Biz müstəqil ölkəyik. Biz böyük xalqıq. Ancaq böyük xalq bu qədər nəticələr əldə edə bilər. Ancaq müstəqillik şəraitində Azərbaycan bu qədər uğurlar əldə edə bilər. Bizim taleyimiz öz əlimizdədir. Mən Azərbaycan gənclərinə üz tutub deyirəm, - görürəm ki, burada toplaşanların əksəriyyəti gənclərdir, - ölkəmizin gələcəyi sizin əlinizdə olacaq. Biz gənclərimizlə fəxr edirik. Bu gün yetişən gənc nəsil Azərbaycanı gələcəkdə idarə edəcək, müstəqillik yolu ilə xoşbəxt gələcəyə aparacaq.

Biz müstəqil ölkəyik, güclü ölkəyik. Biz tutduğumuz yolla gedirik. Əminəm ki, bu yol Azərbaycanı daha xoşbəxt gələcəyə çatdıracaq. Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!».

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva incəsənət ustaları ilə görüşüblər, xatirə şəkilləri çəkdiriblər.

Dövlətimizin başçısının əldə etdiyi ən böyük nailiyyət onun xalqın sonsuz məhəbbətini qazanmasıdır. Prezident İlham Əliyev bütün təmaslarında, ilk növbədə, öz səmimiyyəti ilə insanları cəlb edə bilib, güclü iradəsi, liderlik keyfiyyətləri ilə milyonları ətrafında toplayıb, müstəqil və qüdrətli Azərbaycan uğrunda çalışıb. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası bütün azərbaycanlıların həyatına birdəfəlik daxil olub. Çünki onun müəyyənləşdirdiyi dövlət siyasətinin mərkəzində ancaq bir qüvvə - Azərbaycan vətəndaşı dayanır.

Tədbir atəşfəşanlıqla başa çatdı.

> “ Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm, bu dəstəyə arxalanmışam. Mənim fəaliyyətimdə Azərbaycan xalqının dəstəyi əsas rol oynayır. Həmişə çalışmışam ki, xalqa sədaqətlə, ləyaqətlə xidmət edim



## Dövlət başçısının ünvanına təbrik teleqramları daxil olmaqda davam edir

**Azərbaycan Respublikasının Prezidenti**
**Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli Prezident, əziz İlham.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm.

Ümidvaram ki, yeni prezidentliyiniz müddətində ortaq fundamental dəyərlərə və prinsiplərə, eləcə də qlobal siyasi və iqtisadi maraqlarımıza əsaslanan yeni geniş ikitərəfli saziş üzrə aparılan danışıqlar vasitəsilə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər daha da dərinləşəcək.

Mən, həmçinin regionda sabitlik və rifah kimi ümumi məqsədlərimizə nail olmaq, Avropa İttifaqının iştirakını və dəstəyini daha da gücləndirmək məqsədilə Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlığımızı inkişaf etdirmək naminə Sizinlə fəaliyyətimizin davam etməsini səmimiyyətlə arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə, Sizin Donald Tusk*
*Avropa İttifaqı Şurasının prezidenti*

**Azərbaycan Respublikasının Prezidenti**
**Zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli cənab Prezident.

Fürsətdən istifadə edərək Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Avropa İnsan Hüquqları Konvensiyasına əsaslanan insan hüquqları, demokratiya və qanunun aliliyi standartlarının üstünlüyünün Azərbaycanda təmin olunması istiqamətində Sizinlə sıx işləmək niyyətindəyəm.

*Səmimiyyətlə, Torbyorn Yaqland*
*Avropa Şurasının Baş katibi*

*Strasburq, 13 aprel 2018-ci il.*

Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri — səh. 2
Transfer qiymətlərinə nəzarət vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılmasına səbəb olacaq — səh. 3
Yoxlamaların elektronlaşdırılması şəffaflığı artırır — səh. 4
Vergi islahatları iqtisadi artımın dəstəklənməsinə yönəldilib — səh. 5

# Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Ramiz Mehdiyevin məqaləsi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb**



Məqalədə bildirilir ki, Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması Ulu Öndərin, dövlətimizin modernləşməsi və daha da güclənməsi, milli iqtisadiyyatımızın sürətli inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır: «Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüşə nail olmaq mümkün deyil. Ötən 15 il ərzində Prezident İlham Əliyev Ulu Öndərin qurduğu təməl üzərində Azərbaycanın bir dövlət kimi dayaqlarını möhkəmləndirdi. Dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir. Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri İlham Əliyevin 2003-2018-ci illərdə imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapmışdır. Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadi quruculuq prosesi geniş vüsət aldı. Azərbaycan regionun ən perspektivli ölkəsinə çevrildi. Hər bir Azərbaycan vətəndaşı ölkəmizin iqtisadi gücü və qüdrətinin ilbəil artmasının şahidi oldu, iqtisadi inkişafın nəticələrini özünün həyat səviyyəsinin yüksəlməsində hiss etdi».

Məqalədə, həmçinin, Heydər Əliyevin aqrar islahatların gedişi və onun perspektivləri barədə çox aydın strateji baxışlara malik olduğunu, məhz buna görə də 1999-cu ildən etibarən kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edildiyi vurğulanıb. Akademik son illər ölkəmizdə həyata keçirilən institusional islahatlar çərçivəsində dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl və kompleks tədbirlər görüldüyünü qeyd edib: «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli Qanununa əsasən, bu sahədə aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılmışdır. Qanuna görə bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, qida təhlükəsizliyinə və dövlətin maraqlarına mühüm təhlükə yaradan hallar üzrə yoxlamalar aparıla bilər. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 noyabr tarixli Fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti 2021-ci il yanvarın 1-dək uzadılmışdır. Məhkəmənin qərarı olmadan hüquq-mühafizə orqanlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsi qadağan edildi. Vergilər Nazirliyinin səyyar vergi yoxlamalarının sayı azaldıldı, işçi heyəti 40 faiz ixtisar edildi. Yerli icra hakimiyyəti orqanlarının nəzarət qurumları ləğv olundu».

Ramiz Mehdiyev maliyyə nəzarəti sistemində vergi nəzarəti orqanlarının üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb: «Müasir dövrdə vergi siyasəti yalnız fiskal funksiyaları yerinə yetirmir, o, həm də iqtisadi inkişafın stimullaşdırıcı aləti kimi çıxış edir. Bu baxımdan vergi orqanlarının fəaliyyəti sahibkarlığın inkişafını dəstəkləməlidir. Vergi xidmətində peşəkar və təmiz kadrlara üstünlük verilməli, vergi əməkdaşlarının yüksək səviyyəli xidmət göstərməsi üçün onlara normal iş rejimi yaradılmalıdır. Vergi sisteminə hörmət və inamın artırılması üçün ciddi addımlar atılmalı, vergi ödəyiciləri ilə münasibətlər qarşılıqlı hörmət və etimada əsaslanmalıdır. Vergi uçotunun dəqiq aparılması, auditin real funksiyasının bərpa olunması, vergilərin yığılmasından vergilərin ödənilməsinə keçidin təmin edilməsi yeni mərhələdə vergi nəzarəti orqanlarının xüsusi diqqət yetirməli olduqları fəaliyyət istiqamətləri olmalıdır».

Məqalədə qeyd olunub ki, biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində 2003-2017-ci illərdə ölkəmizin qeyri-neft ixracı 4,1 dəfə, ixrac olunan mal çeşidlərinin sayı 2,6 dəfə artmışdır. Sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 1,9 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artmışdır. Bu müddət ərzində ölkə iqtisadiyyatına 2,6 dəfədən çox xarici investisiya cəlb olunmuşdur.

> Vergi xidmətində peşəkar və təmiz kadrlara üstünlük verilməli, vergi əməkdaşlarının yüksək səviyyəli xidmət göstərməsi üçün onlara normal iş rejimi yaradılmalıdır. Vergi sisteminə hörmət və inamın artırılması üçün ciddi addımlar atılmalı, vergi ödəyiciləri ilə münasibətlər qarşılıqlı hörmət və etimada əsaslanmalıdır

Məqalədə bildirilir: «Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin ölkəmizin idarə edilməsi və sosial-iqtisadi inkişafı ilə bağlı aydın və konkret baxışlara, siyasi iradəyə malik olması, dövlət başçısı tərəfindən bütün sahələr üzrə konkret dövlət proqramlarının təsdiqlənməsi və onların artıq icrasına başlanılması müəyyən edilmiş vəzifələrin reallaşmasına təminat verir.

Beləliklə, 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların həyatı yaxşılaşıb. Lakin milli iqtisadiyyatını formalaşdırmaqda olan Azərbaycan Respublikası müstəqil və gənc dövlət olaraq iqtisadi dayaqlarını daha da möhkəmləndirməli, yeni dövrün çağırışlarını özünün sosial-iqtisadi həyatında daha çevik nəzərə almalıdır. Azərbaycan xalqı bu vəzifələrin məhz İlham Əliyev tərəfindən daha uğurla həyata keçirilə biləcəyini nəzərə alıb öz seçimini bir qayda olaraq ONUNLA bağlayır, dövlətimizin idarə edilməsini tərəddüd etmədən ONA etibar edir»...

# Misir Ərəb Respublikasının səfiri Vergilər Nazirliyində olub



Aprelin 13-də vergilər naziri Mikayıl Cabbarov Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim ilə görüşüb.

Görüşdə iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın önəmi qeyd olunub, ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafının əhəmiyyəti vurğulanıb. Söhbət zamanı investisiya qoyuluşları üçün nəzərdə tutulan güzəştlər, azadolmalar və digər stimullaşdırıcı tədbirlər müzakirə edilib.

# Elektron ticarətə vergi nəzarəti təkmilləşdiriləcək

Azərbaycanda elektron ticarət inkişaf etdikcə bu sahədə ictimaiyyətin, o cümlədən məhsul istehsalçılarının və sahibkarların məlumatlandırılması zərurəti ortaya çıxır. Elektron xidmətlər sahəsində təcrübəsi olan «GoldenPay» şirkətinin rəhbəri Fərid İsmayılzadənin sözlərinə görə, son illər Azərbaycanda inkişaf tendensiyası və müasir texnologiyalardan istifadənin hüdudlarının genişlənməsi bir çox xidmətlər kimi onlayn ticarətə də tələbi artırıb və bu sahədə hər il müsbət dinamika müşahidə olunmaqdadır. Çünki elektron ticarət vətəndaşlar üçün rahatlığı təmin edir. Ancaq hazırda əsas məqsədlərdən biri əhalinin elektron ödəmələr barədə məlumatlandırılması və maarifləndirilməsini gücləndirmək, onlarda onlayn ödəniş vərdişlərini formalaşdırmaq üçün səyləri artırmaqdır.

F.İsmayılzadə hesab edir ki, elektron xidmətlər dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, baş verə biləcək bütün neqativ halların qarşısının alınmasına, dövlət idarəetmə sisteminin ən müasir standartlar səviyyəsinə yüksəldilməsinə imkan verir, həmçinin əhalinin tələbatlarına, iqtisadi effektivliyə, vətəndaş nəzarətinin açıq olmasına səbəb olur. Bu sistem dövlət strukturlarının müasir informasiya texnologiyalarından istifadə etməklə istehlakçılara bilavasitə informasiya xidmətlərinin təşkilinə münbit şərait yaradır.

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamında həyata keçirilməsi nəzərdə tutulan tədbirlər sırasında rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi də öz əksini tapıb. Son illər internet istifadəçilərinin sayının daha da artması, nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı nəzərdə tutulan tədbirlər, internet vasitəsilə alış-veriş edən əhalinin sayının gündən-günə çoxalması ölkəmizdə elektron ticarətin vergiyə cəlb edilməsi üçün böyük potensial olduğunu göstərir. Buna görə də elektron ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin uçotu istehlakçıların hüquqlarının qorunmasına öz müsbət təsirini göstərəcək.

> İnternet, sadəcə, satıcı ilə alıcı arasında əlaqə növüdür və onlar arasında aparılan sövdələşmələrin nəticəsi üzrə yaranan vergi öhdəliklərini ləğv edə bilməz

Şirkət rəhbərinin sözlərinə görə, bir çox hallarda elektron ticarət əməliyyatları həyata keçirən şəxsin, yəni satıcının bir dövlətin, alıcının isə digər dövlətin rezidenti olması, serverin üçüncü bir dövlətdə yerləşməsi vergiyə cəlb edilmədə problemlər yaradır. Bununla bağlı olaraq, bir çox dövlətlərin vergi orqanlarının qarşısında duran əsas vəzifə elektron ticarət əməliyyatları həyata keçirən şəxsin rezidentliyinin və elektron ticarət əməliyyatlarının sənədləşməsinin aparılmasının təmin edilməsidir. Belə vergi ödəyicilərinin uçota alınması elektron ticarət sahəsində satıcı və alıcı arasındakı münasibətlərin tənzimlənməsinə şərait yaradır.

Elektron ticarət həyata keçirən bir sıra şəxslər hesab edirlər ki, onların fəaliyyəti virtual aləmdə olduğu üçün vergiləri ödəməyə bilərlər. Ancaq vergi orqanının qənaətinə görə, internet, sadəcə, satıcı ilə alıcı arasında əlaqə növüdür və onlar arasında aparılan sövdələşmələrin nəticəsi üzrə yaranan vergi öhdəliklərini ləğv edə bilməz.

Ölkəmizdə biznesin elektron qaydada aparılması zamanı meydana çıxan hüquqi və iqtisadi münasibətləri tənzimləyən bir sıra qanunvericilik aktları mövcuddur. Bunlara «Elektron sənəd, elektron imza haqqında», «Elektron ticarət haqqında» qanunlar, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə elektron ticarətlə bağlı müddəaların daxil edilməsini göstərmək olar. Hazırda elektron ticarətə vergi nəzarəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada aparılır. Vergilər Nazirliyinin mütəxəssisləri elektron ticarətin vergiyə cəlb olunmasının daha səmərəli mexanizminin yaradılması üçün qanunvericiliyin və informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində ciddi işlər görməkdədirlər. Elektron ticarət üzrə vergi nəzarətinin təşkil edilməsi üçün, ilk növbədə, ölkədə kommersiya məqsədləri ilə yaradılan bütün internet resursları vergi uçotuna alınmalı və onların gəlirlərinin vergi qanunvericiliyinə uyğun bəyan edilməsi təmin olunmalıdır. Eyni zamanda, bu növ fəaliyyəti həyata keçirən şəxslərin istifadə etdiyi veb səhifələrin müəyyən edilməsi ilə vergi orqanında uçotunun yoxlanılması həyata keçiriləcəkdir. Hazırda elektron ticarət sahəsində qabaqcıl təcrübənin öyrənilməsi istiqamətində də müvafiq işlər görülür.

**Rəşad SADIQOV**

# Sahibkarların fəal və təşəbbüskar olması müasir dövrün tələbidir

Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı bildirib ki, Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində ardıcıl islahatlar həyata keçirilir, sahibkarlığa dəstək tədbirləri gücləndirilir, vergi sistemi tam şəffaflaşdırılır. Aparılan islahatlar ölkədə biznesin inkişafının stimullaşdırılması üçün yaxşı fürsət yaradır:

> Son vaxtlar vergi sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi, bildiyimə görə, artıq biznes dairələri tərəfindən də müsbət qarşılanır və bu istiqamətdə əlavə addımlar atılacaq. Mən əvvəlki çıxışlarda da dəfələrlə demişəm ki, biz dünyada mövcud olan ən müsbət, ən şəffaf praktikanı Azərbaycanda tətbiq etməliyik və bizim bütün maliyyə sistemimiz tam şəffaf mexanizm kimi işləməlidir

«İqtisadi Resursların Öyrənilməsi» İctimai Birliyinin vergi məsələləri üzrə mütəxəssisi Radi Fətullayevin sözlərinə görə, Vergilər Nazirliyinin 2018-ci ildən apardığı yeni islahatlar kursu vergi sistemində şəffaflığın təmin edilməsinə, idarəetmə prinsiplərinin yenidən təşkili və müasir vergi inzibatçılığının formalaşdırılmasına, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsinə xidmət edir. Hazırda vergi qanunvericiliyində mövcud olan bəzi boşluqların aradan qaldırılması, Vergi Məcəlləsinin yeni redaksiyasının hazırlanması ilə bağlı sahibkarlardan daxil olmuş rəy və təkliflər nəzərdən keçirilir. İqtisadçılarda və biznes icmasında qanunvericiliyə dəyişikliklər zamanı onların fikir və təkliflərinə geniş yer veriləcəyinə dair əminlik var. İslahatların ən mühüm istiqamətlərindən biri kimi inzibatçılığın sadələşdirilməsi sahibkarlığın fəaliyyətinin stimullaşdırılmasına imkan verəcək. Dövlət biznes sektoru ilə faydalı və təmassız əməkdaşlığın qurulmasına böyük önəm verdiyi kimi, qarşı tərəfdən də eyni münasibəti gözləyir, ölkəmizin inkişafı naminə hər bir sahibkarı dürüst, vicdanlı, şəffaf olmağa dəvət edir. Amma bu dəstəyə, əsassız yoxlamaların dayandırılmasına, biznesin qeydiyyatının sadələşdirilməsinə, sahibkarların hüquq və mənafelərinin qorunmasına xidmət edən digər təsirli addımların atılmasına baxmayaraq, təəssüf ki, bəzi iş adamları bütün bunlardan sui-istifadə edərək müxtəlif yollarla vergidən yayınmağa, yaxud bazara keyfiyyətsiz məhsul çıxarmağa çalışırlar.

Dövlət başçısı hökumətin sahibkarlığın inkişafına kompleks şəkildə yanaşdığını, institusional islahatlar aparıldığını və yaradılan müəssisələrin həm iş yerlərinin açılmasına xidmət etdiyini, həm də yerli istehsalı gücləndirdiyini vurğulayaraq, sahibkarların bu əlverişli şəraitdən daha səmərəli şəkildə faydalanmalarını tövsiyə edib, onları fəal və təşəbbüskar olmağa çağırıb. İnvestisiya təşviqi ilə bağlı dövlətin göstərdiyi maliyyə dəstəyinin və təmin etdiyi digər vasitələrin istehsalın və ixracın artırılmasına yaxşı fürsət yaratdığından biznes nümayəndələri bunu lazımınca qiymətləndirməlidir: «Əgər biz oturub gözləsəydik ki, kimsə gəlib bunu bizim əvəzimizə edəcək, hansısa investor gəlib pul qoyacaq, bunların heç biri mümkün olmazdı. Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, sahibkarlara həm dəstək vermək, həm də yol göstərmək lazımdır. Bir çox hallarda onlar passivlik göstərirlər, təşəbbüs göstərmirlər, hətta yetişdirdikləri məhsulu xaricə aparmağa belə tənbəllik edirlər. Gözləyirlər ki, kimsə gəlib onların qapısını döyəcək, onların məhsulunu alacaq. Onlar özləri getməlidirlər, bazarları axtarmalıdırlar, kontraktlar imzalamalıdırlar, təmaslar qurmalıdırlar».

Məsələyə münasibət bildirən iqtisadçı ekspert Ədalət Əsədov hesab edir ki, sahibkarlar cəmiyyətin aparıcı qüvvəsidir, onlar ölkənin iqtisadi inkişafında və sosial yüksəlişin təmin olunmasında fəal iştirak etməlidirlər: «Dövlət ixracın stimullaşdırılması üçün əlverişli imkanlar yaradıb, maliyyə dəstəyi verir, ixracla məşğul olan sahibkarlara vergi-gömrük güzəştləri tətbiq edib, bir neçə ölkədə artıq ticarət evləri yaradılıb, «Made in Azerbaijan» brendi ilə məhsul istehsal edən sahibkarları həvəsləndirən təşviqedici addımlar atır. Sahibkarlar onlar üçün yaradılmış yeni imkanlardan maksimum istifadə etməlidirlər. İri sahibkarlıq sektorunun təmsilçiləri səylərini daha da artıraraq regionlarda yeni iş yerlərinin, müəssisələrin yaradılmasında kiçik və orta biznesə nümunə olmalıdırlar».

Regionlarda yeni müəssisələrin yaradılmasında dövlətin investiyaları üstünlük təşkil edir, son 14 ildə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində birbaşa dövlət sərmayələrinin həcmi 50 milyard manatdan artıq olub. Azərbaycan hökuməti hər il təkcə qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlara 200 milyon manatdan artıq güzəştli kreditlər verir. Qeyri-dövlət maliyyə qurumlarının payı isə çox aşağıdır. Ölkədə sahibkarlığın aparıcı qüvvəsi olan kommersiya bankları da proseslərdə aktiv iştirak etməlidirlər. Bölgələrdə fəaliyyət göstərən orta və kiçik biznesin sərfəli kreditlərlə təmin olunması bu sahənin, bütövlükdə isə ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynaya bilər.

**Elbrus CƏFƏRLİ**

# Transfer qiymətlərinə nəzarət vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılmasına səbəb olacaq

Aprelin 17-də «Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» üzrə Tvinninq layihəsinin təqdimat mərasimi keçirilib.



**Tədbiri giriş sözü ilə açan vergilər naziri Mikayıl Cabbarov** layihənin həyata keçirilməsində göstərdiyi dəstəyə görə Avropa İttifaqının nümayəndələrinə minnətdarlığını bildirib. Qeyd edilib ki, bu cür layihələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən iqtisadi inkişaf siyasətinin və Azərbaycanla Avropa İttifaqı arasında səmərəli əməkdaşlığın real nəticəsidir. Vergilər Nazirliyi milli vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsinə xüsusi önəm verir və öz işini bu sahədə mövcud olan qabaqcıl beynəlxalq təcrübə əsasında, yüksək dünya və Avropa İttifaqı standartları səviyyəsində qurmağa çalışır.

Son illər dünya iqtisadiyyatının qloballaşması və transmilli korporasiyaların beynəlxalq ticarətdə rolunun artması fonunda dünya vergi administrasiyalarının qarşısında transfer qiymətlərinə nəzarət kimi mühüm bir problemin meydana çıxdığını qeyd edən vergilər naziri bildirib ki, qlobal şirkətlərin vergilərin minimallaşdırılması məqsədilə müxtəlif sxemlərdən istifadə etməsi, yekun mənfəəti əldə etmək üçün qarşılıqlı asılı olan şəxslər arasında əməliyyatların və qiymətlərin planlaşdırılması müasir dövrümüzdə vergi orqanları üçün bir çox çətinliklər yaradır. Bildirilib ki, qiymətlərin və əməliyyatların planlaşdırılmasından yaranan vergi riskləri bu gün ən çox rast gəlinən və miqyasına görə ən geniş yayılan vergidənyayınma formalarından biridir. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası gücləndikcə ölkəmiz də bu sahədə müəyyən çağırışlarla üzləşib. Bu baxımdan, transfer qiymətlərinə nəzarət mexanizmlərinin yaradılması milli vergi administrasiyasının 2020-ci ilədək olan strateji inkişaf planlarına daxil edilib.

2017-ci ildən başlayaraq milli vergi qanunvericiliyində transfer qiyməti anlayışını ehtiva edən və vergitutma bazasının azaldılmasının qarşısını almaq məqsədi daşıyan bir sıra müddəalar əlavə olunub: «Biz transfer qiymətlərinə nəzarət sahəsində böyük təcrübəyə malik Avropa ölkələrinin təcrübəsindən yararlanmaq qərarına gəldik. Avropa İttifaqına müvafiq Tvinninq layihəsi vasitəsilə bu sahədə dəstək göstərilməsi ilə bağlı müraciət edildi və bu, Avropa Komissiyası tərəfindən də müsbət qarşılandı. Nəticədə «Transfer qiymətlərin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» adlı Tvininiq layihəsinin həyata keçirilməsi qərara alındı. Artıq bununla bağlı müvafiq prosedurlar tamamlanıb, layihə ilə bağlı tender keçirilib və həmin tenderdə Yunanıstanın vergi administrasiyası ilə Beynəlxalq və Avropa İqtisadi Hüquq Mərkəzi qalib gəliblər».

M.Cabbarov qeyd edib ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən bu layihənin məqsədi transfer qiymətləri ilə bağlı praktiki məsələlərin inzibatçılığına dair Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsinin öyrənilməsi, mövcud qaydaların və qanunvericiliyin daha da təkmilləşdirilərək Avropa İttifaqı standartlarına uyğunlaşdırılması, transfer qiymətləndirməsinin tənzimlənməsi sahəsində inzibati nəzarət mexanizmlərinin yaradılması, transfer qiymətləndirməsi üzrə auditin tətbiqi və icra edilməsinə başlanılmasıdır: «Vergilər Nazirliyi Avropa İttifaqı ilə birgə əməkdaşlıq çərçivəsində indiyədək 3 tvinninq layihəsi reallaşdırıb. Elektron auditin tətbiqi sahəsində həyata keçirilmiş layihə nəticəsində bu gün milli vergi administrasiyasında elektron audit praktiki olaraq həyata keçirilir. İnsan resurslarının inkişafı sahəsində daha bir mühüm layihəmiz reallaşdırılıb. Vergi ödəyicilərinə xidmət sferasının təkmilləşdirilməsi sahəsində əməkdaşlığımız isə bu gün də davam edir. Yeni tvinninq layihəsi çərçivəsində Yunanıstanın milli gəlirlər üzrə müstəqil orqanının mütəxəssisləri, eləcə də Avropa İttifaqının ekspertləri Vergilər Nazirliyinin əməkdaşları ilə öz təcrübələrini bölüşəcəklər. Qarşıdakı 2 il ərzində həyata keçirilməsi nəzərdə tutulan bu tvinninq layihəsi Vergilər Nazirliyinin inzibatçılıq potensialının artmasına, vergitutma bazasının genişlənməsinə, vergi orqanlarının qarşısında duran strateji vəzifələrin yerinə yetirilməsinə xidmət edəcəkdir. Layihənin icrası sayəsində, həmçinin, Vergilər Nazirliyinin insan resurslarının inkişaf etdirilməsi istiqamətində də uğurlu nəticələrə nail olunacaqdır».

---

**Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas** təmsil etdiyi qurumla Azərbaycan arasında sıx əməkdaşlığın mühüm faydalar verdiyini diqqətə çatdıraraq bildirib ki, hazırda iqtisadiyyatın rəqabətliliyinin artırılması və bilik iqtisadiyyatı quruculuğu istiqamətində həyata keçirilən islahatların mühüm hədəflərindən biri də vergi sisteminin müasir dünya standartlarına uyğunlaşdırılmasıdır. Ötən dövr ərzində Azərbaycanın vergi administrasiyası ilə vergi sahəsində səmərəli əməkdaşlıq quraraq bir neçə layihənin gerçəkləşməsinə öz töhfəsini verən Aİ Tvinninq yardım aləti çərçivəsində insan resurslarının davamlı inkişafının təmin edilməsinə, vergi inzibatçılığının təkmilləşdirilməsinə və müasir informasiya texnologiyalarının geniş tətbiqinə, habelə vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsinə dəstək verəcək. Qeyd olunub ki, hazırda Tvinninq yardım aləti çərçivəsində vergi sistemində icrasına başlanılan yeni layihə Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradacaq, vergi sistemində müasir texnoloji yeniliklərin tətbiqinə, insan resurslarının inkişafına, maliyyə intizamının güclənməsinə, vergidən yayınma hallarının azalmasına, vergitutma bazasının genişlənməsinə və şəffaflığın artmasına səbəb olacaq.




> “Vergilər Nazirliyi milli vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsinə xüsusi önəm verir və öz işini bu sahədə mövcud olan qabaqcıl beynəlxalq təcrübə əsasında, yüksək dünya və Avropa İttifaqı standartları səviyyəsində qurmağa çalışır

---

**Yunanıstan Respublikasının ölkəmizdəki səfiri Nikolaos Kanellos** bildirib ki, tətbiqinə başlanılan yeni Tvinninq layihəsi vergi ödəyiciləri ilə səmərəli əməkdaşlığın qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində irəliyə doğru növbəti mühüm addımdır. Layihə transfer qiymətləndirməsinə dair qanunvericiliyin və praktiki məsələlərin inzibatçılığı, habelə transfer qiymətləndirməsi üzrə auditin tətbiqi və icra edilməsi sahələrində Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənməyə və gələcəkdə mövcud qaydaların daha da təkmilləşdirilməsinin təmin olunmasına xidmət edəcəkdir.

---

**Beynəlxalq və Avropa İqtisadi Hüquq Mərkəzinin rəhbəri Elisavet Adamantidou** qeyd edib ki, mərkəz dünyada müxtəlif qlobal layihələrə hüquqi dəstək göstərir, dünya ölkələrinin qabaqcıl təcrübəsinin tətbiqində hüquqi məsələlərin həllinə kömək edir. İndiyədək 40-dan artıq beynəlxalq layihənin icrasında iştirak edən Avropa İqtisadi Hüquq Mərkəzi 29 Tvinninq yardım alətində təmsil olunub. Mərkəzin mütəxəssisləri şirkətlərin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunluğu, təkmil vergi qanunvericiliyi, vergi sazişlərinin əhatə dairəsi və tətbiqi prosesi və digər hüquqi mexanizmlərin həlli istiqamətində Azərbaycanın vergi orqanlarına öz köməkliklərini göstərəcəklər.

Sonra layihə üzrə təqdimatlar keçirilib. Layihənin rəhbəri, Yunanıstan Milli Gəlirlər Departamentinin beynəlxalq layihələr üzrə əlaqələndirmə qrupunun rəhbəri Katerina Perrou təqdimatla çıxış edərək bildirib ki, müxtəlif ölkələrdə fəaliyyət göstərən yerli və xarici şirkətlərin apardıqları kommersiya əməliyyatlarında vergidən yayınma hallarına yol verilməsi risklərinin qarşısının alınması üçün ən yaxşı mexanizmlərdən biri transfer qiymətlərinə nəzarətdir. Transfer qiymətinin tətbiqinin məqsədi bir-biri ilə qarşılıqlı əlaqəli şəxslər tərəfindən həyata keçirilən əməliyyatların bazar qiymətləri prinsipinə uyğun aparılmasına nəzarət etmək və vergitutma bazasının azaldılmasının qarşısını almaqdır. Azərbaycanla birgə icra olunacaq layihənin məqsədi də transfer qiymətləndirməsi sahəsində audit prosesləri üçün resursların yaradılması və səmərəli auditin tətbiqidir. Layihə üzrə 3 əsas nəticənin əldə olunması qarşıya məqsəd qoyulub. Bunlar transfer qiymətləndirməsi sahəsində qanunvericiliyin Avropa İttifaqı standartlarına uyğunlaşdırılması, inzibati nəzarət mexanizmlərinin yaradılması və bu sahədə Vergilər Nazirliyinin institusional potensialının artırılmasıdır.

Layihənin Azərbaycan üzrə daimi Tvinninq müşaviri, Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin əməkdaşı Ceyhun İsmayılov təqdimatla çıxış edərək bildirib ki, vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədilə vergi qanunvericiliyinə bir sıra əlavə və dəyişikliklər edilib. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məqsədilə «Thomson Reuters» şirkəti ilə Vergilər Nazirliyi arasında müvafiq müqavilə imzalanıb. Hazırda həmin məlumat bazasından transfer qiymətlərinin tətbiqi məqsədləri üçün istifadə olunur.

Qeyd edilib ki, layihənin icra müddəti 2 ildir və artıq altı ay üzrə Fəaliyyət Planı təsdiq edilib. Bu müddət ərzində vergi orqanı əməkdaşları arasında beynəlxalq vergitutma, o cümlədən transfer qiymətləri sahəsində ilkin biliklərin formalaşdırılması əsas hədəf kimi götürülüb. Növbəti aylar üçün hazırlanması nəzərdə tutulan Fəaliyyət Planında əsasən transfer qiymətləri üzrə risk-təhlil və audit prosesinin təşkili ilə bağlı məsələlər öz əksini tapacaqdır. Transfer qiymətləri üzrə sənədləşmələrdə konkretliliyin təmin olunması, «qiymətlərin əvvəlcədən razılaşdırılması» prosesinin təkmilləşdirilməsi məqsədilə qanunvericilikdə bir sıra dəyişikliklərin edilməsi də nəzərdə tutulur. İnzibatçılıq sahəsində isə transfer qiymətləri üzrə riskin idarə edilməsi və təhlil prosesinin sistemləşdirilməsi, institusional bacarıqların inkişafı, müvafiq təlimlərin təşkili yolu ilə beynəlxalq vergidən yayınma sxemləri ilə mübarizə və audit sahəsində vergi orqanı əməkdaşlarının təcrübəsinin artırılması, daxili məlumat bazasının təkmilləşdirilməsi, müvafiq hesabatı təqdim etməyən vergi ödəyicilərinin aşkarlanması, eləcə də elektron ticarət və rəqəmsal iqtisadiyyata nəzarət mexanizmlərinin yaradılması nəzərdə tutulur.

Layihənin digər Tvinninq üzrə daimi müşaviri, Beynəlxalq və Avropa İqtisadi Hüquq Mərkəzinin əməkdaşı Teodora Messini transfer qiymətləri ilə bağlı nəzərdə tutulan tədbirlərin iqtisadi, fiskal, vergi sahəsində inzibatçılığın təkmilləşdirilməsinə və ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasına, vergi nəzarətinin yeni mexanizmlərinin tətbiqinə səbəb olacağına əminliyini ifadə edib.

---

Tvinninq layihəsinin təqdimat mərasimindən sonra vergilər naziri Mikayıl Cabbarov KİV nümayəndələrinin suallarını cavablandırıb.

Layihənin əsas məqsədləri barədə danışan vergilər naziri bildirib ki, layihə ölkəmizdə qabaqcıl təcrübənin tətbiq edilməsi, xüsusilə beynəlxalq şirkətlərin və şirkətlər qruplarının öz aralarında həyata keçirdikləri əqdlərin qiymətləndirilməsi ilə bağlı ortaya çıxan məsələlərin tənzimlənməsinə xidmət edəcək. M.Cabbarovun sözlərinə görə, Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına sürətlə inteqrasiya edir və bir çox yerli şirkətlərin ölkədən kənar fəaliyyəti genişlənir. Bu isə həmin sahələrdə qanunvericiliyin təkmilləşdirilməsini və onun düzgün tətbiqini təmin edə biləcək mütəxəssislərin hazırlanmasını tələb edir. Məhz bu məqsədlə Avropa İttifaqı tərəfindən təqdim edilən Tvinninq aləti çərçivəsində Yunanıstanın vergi orqanı ilə birlikdə ölkəmizdə müvafiq proqram həyata keçiriləcəkdir.

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı görülən işlərə toxunan vergilər naziri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, hazırda Vergi Məcəlləsinin və bir sıra digər qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətində işlər gedir. Qanunvericiliyə ediləcək mümkün əsas dəyişikliklərin mahiyyəti kiçik və orta sahibkarlığa tətbiq edilən vergi yükünün, eləcə də vergi inzibatçılığının əhəmiyyətli dərəcədə yüngülləşdirilməsidir. Bu isə ölkədə sahibkarlıq fəaliyyətinə, xüsusilə də kiçik və mikro sahibkarlara dəstək verilməsi ilə bağlıdır. Orta və iri müəssisələrə gəldikdə, burada əsas istiqamətlər həmin subyektlərin fəaliyyətində daxili hesabatlılığın və şəffaflığın səviyyəsinin artırılması və vergi qanunverciliyinin tələblərinə uyğunlaşdırılmasıdır. Bu da, öz növbəsində, onların rəqabət qabiliyyətinin artmasına və vergi ödənişlərinin sabitliyini öncədən müəyyənləşdirməsinə imkan verəcək. Dövlət büdcəsinin gəlirləri üzrə proqnozların icrasının təmin edilməsi büdcənin cari xərclərinin vaxtlı-vaxtında yerinə yetirilməsi üçün zəmin yaradacaqdır.

M.Cabbarov vurğulayıb ki, vicdanlı vergi ödəyicisi ilə qanunu pozmağa çalışan, vergidən yayınmağa cəhd edən vergi ödəyicisi arasında həm qanunvericilikdə, həm də inzibatçılıqda fərq getdikcə artacaq, öz işini qanuna uyğun quran bütün sahibkarların fəaliyyətlərini daha rahat və şəffaf şəkildə həyata keçirməsi üçün münbit zəmin yaradılacaqdır.

**Elbrus CƏFƏRLİ**

# «Azexport»un yeni mobil versiyası istifadəyə verilib

«Azexport.az» portalının missiyası Azərbaycan mənşəli mallar haqqında məlumatların təqdim edilməsi, onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platforma yaradılmasıdır. Portal dünyanın ən populyar elektron satış şəbəkələri ilə inteqrasiya olunaraq Azərbaycan mallarını dünyaya sərgiləyir. «Azexport.az»ın funksionallığını artırmaq üçün bura iri logistik şirkətlər, ödəniş sistemləri cəlb olunur, dünya miqyasında önəmli yer tutan elektron ticarət portalları ilə əməkdaşlıq edilir.

Portalın xüsusi diqqət yetirdiyi məsələlərdən biri də onun texnoloji imkanlarının genişləndirilməsidir. Bu baxımdan, yeni yaradılmış mobil proqram ölkədəki istehlak mallarının üzərində göstərilən ştrix-kod vasitəsilə məhsul haqqında ətraflı məlumat almağa imkan yaradır. Bundan sonra marketdən aldığımız istənilən yerli məhsul haqqındakı müfəssəl məlumatı mobil telefonumuzdan öyrənə biləcəyik. Portalının rəhbəri Zaur Qardaşov bildirmişdir ki, bunun üçün smartfona xüsusi proqram yüklənməsi kifayətdir: «CS1 proqramı malın mənşəyi haqqında tam dolğun məlumat verir. Malın üzərindəki barkodu telefona oxutmaqla məhsulun bir növ vizit kartını əldə etmiş olursunuz. Məhsulun saxta olub-olmamasını təyin etmək gələcəyin işidir. Hələlik isə ştrix-kodların CS1 bazasında olub-olmamasını yoxlamağa imkan verən variant tətbiq olunacaq. Yəni skan etdiyiniz məhsul haqqında məlumat bazada çıxmırsa, ola bilər ki, həmin məhsul hələ qeydiyyatdan keçməyib. Tam əminliklə saxta olmasını isə hələ demək olmaz».

Zaur Qardaşov qeyd etmişdir ki, növbəti mərhələdə yeni blokçeyn texnologiyasına əsaslanan və məhsulun saxtalaşdırılmasını ümumiyyətlə mümkünsüz edən proqram tətbiqinin istifadəyə verilməsi sahibkarların məhsullarına xarici bazarlarda əlavə dəyər yaratmağa imkan verəcək: «Bununla da bazarda rəqabət artacaq, bundan sonra istehsalçılar məhsullarına olan inamı doğrultmaq üçün ştrix-kodlarını bazaya yükləyəcəklər. Hazırda sistemdə 90 mindən çox ştrix-kod mövcuddur. Sistem elə yaradılıb ki, eyni çeşidə eyni ştrix-kodu verə bilməzsən, onlar fərqlidir. Supermarketdə müxtəlif çeşidlərə eyni ştrix-kodla işarələnmiş məhsul gördünüzsə, onda bilin ki, bu kodlar yanlışdır. Hələlik bu proqramı yalnız android sistemlə işləyən telefonlarda əldə etmək mümkündür. Yaxın günlərdə proqram Apple GS sistemində də öz həllini tapacaq».

**FƏXRİYYƏ**

# III Bakı Ticarət (Shopping) Festivalına sayılı günlər qaldı

May ayının 1-dən 31-dək ölkəmizin paytaxtında növbəti ticarət festivalı keçiriləcək. Festival çərçivəsində alınan mala görə ödənilmiş məbləğin əlavə dəyər vergisini sadəcə şəxsiyyət vəsiqəsini təqdim etməklə geri almaq mümkün olacaq. Malların dəyəri bir hesab-faktura üzrə 100 manatdan çox olarsa, həmin sənədi satıcıdan almaq və bu məqsədlə yaradılan ƏDV köşkündə təsdiqlətmək lazımdır. Ödənilən məbləğin vergisini müvafiq müvəkkil bank vasitəsilə nağd və ya köçürmə yolu ilə geri almaq olar.

Qeyd edək ki, Bakı Ticarət Festivalı (Baku Shopping Festival) ilk dəfə ötən ilin aprel ayında təşkil olunmuşdu. Tədbir ticarət dövriyyəsini inkişaf etdirmək, genişləndirmək, daxili və xarici turizmə əlavə stimul yaratmaq, yerli istehsalı və sahibkarlığı hərəkətə gətirmək, qeyri-neft sektorunun yeni bir yolla canlanmasına nail olmaq məqsədi daşıyır.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# NKA və POS-terminalların quraşdırılması

***Mehmanxanalarda nəzarət-kassa aparatı (NKA) və POS-terminal quraşdırılmalıdırmı?***

Vergi Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarını nəzarət-kassa aparatı vasitəsilə həyata keçirmək vəzifəsi yalnız pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə aid edilir.

Vergi Məcəlləsinin 16.1.9-cu maddəsi ilə nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək vergi ödəyicisinin vəzifəsi kimi müəyyən edilmişdir.

Vergi Məcəlləsinin 16.1.11-1-ci maddələrinə görə, nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq, POS-terminalların quraşdırılmasını və (və ya) «Elektron ticarət haqqında» Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq satıcı kimi fəaliyyət göstərdikdə, həmin Qanuna əsasən, istehlakçıların elektron ödəniş etmək imkanını təmin etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmiş «POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları»nın 1.2-ci bəndinə əsasən, dövriyyəsindən və ərazisindən asılı olmayaraq, mehmanxanalarda POS-terminal quraşdırılmalıdır.

**Qeyd olunanlara əsasən:**

Mehmanxanaların fəaliyyəti nağd pul hesablaşmaları zamanı nəzarət-kassa aparatı vasitəsilə həyata keçirilən fəaliyyət növlərinə aid edilmədiyindən, əhali ilə pul hesablaşmaları aparılarkən müştəridən qəbul edilən nağd pul vəsaitinə görə onlara ciddi hesabat blankı olan qəbz təqdim edilməlidir. Eyni zamanda, müştərilərlə nağdsız hesablaşmaların aparılması məqsədilə, dövriyyəsindən və ərazisindən asılı olmayaraq, mehmanxanalarda POS-terminal quraşdırılmalıdır.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- 13 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) əməkdaşları tərəfindən Balakən rayonundakı Qazbinə tam orta məktəbində rayon təhsil şöbəsinin nümayəndələrinin, «Vergi dostları» layihəsi üzvlərinin, kənddə fəaliyyət göstərən sahibkarların iştirakı ilə görüş keçirilib. Tədbirdə çıxış edən Təhsil şöbəsinin metodisti Mahi Əliyeva ölkədə aparılan vergi siyasətinə uyğun olaraq gənc nəslin, o cümlədən orta və ali təhsil müəssisələrinin şagird və tələbələrin vergilər haqqında bilik və anlayışlarının artırılması və onlarda vergi mədəniyyətinin formalaşdırılması istiqamətində Vergilər və Təhsil nazirlikləri arasında səmərəli əməkdaşlığın real bəhrələr verdiyini vurğulayıb.
  Tədbirdə şagirdlər tərəfindən qədim vergi növlərindən, müasir vergi sistemindən bəhs edən səhnəciklər nümayiş etdirilib.
- 9 saylı Ərazi Vergilər İdarəsi Ağdaş və Ucar rayonlarında qeydiyyatda olan bələdiyyə təmsilçiləri ilə görüş keçirib. Tədbirdə «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi, o cümlədən fiziki şəxslərin torpaq vergisinin torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanması, torpaq vergisinin hesablanması zamanı «Yerli (bələdiyyə) büdcəyə torpaq vergisinin hesablanması forması»ndan istifadə edilməsi, bələdiyyə tərəfindən hesablanmış torpaq və əmlak vergisinin məbləği və ödənilmə müddəti barədə «Tədiyyə bildirişi» barədə ətraflı məlumat verilib. Görüşün sonunda vergi əməkdaşları bələdiyyə təmsilçilərində maraq doğuran sualları cavablandırıblar.
- 9 saylı ƏVİ-nin əməkdaşları tərəfindən Göyçay rayonunda fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçirilib. Tədbirdə vergi qanunvericiliyinə edilmiş dəyişikliklər, bu dəyişikliklərin sahibkarların fəaliyyətinin stimullaşdırılmasında rolu, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, eləcə də elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadə qaydaları, ictimai iaşə, pərakəndə ticarət, topdansatış ticarət və İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotunun aparılması qaydaları, vergi ödəyicilərinin qeydiyyatı, nağdsız hesablaşmaların genişləndirilməsi, əmək müqaviləsinin rəsmiləşdirilməsi və şəffaf vergi partnyorluğu barədə ətraflı məlumat verilib.

# Sabit vergi

Fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün ötən ildən sadələşdirilmiş vergi üzrə sabit vergi müəyyən edilmişdir. Sabit vergi fərdi qaydada, yəni muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərə tətbiq edilir. Belə ödəyicilər əsasən kiçik həcmdə gəlirlərə malik şəxslərdir. Bəzi fəaliyyət növlərinin sabit vergiyə cəlb olunmasının əsas məqsədi bu sahədə uçotun sadələşdirilməsi və vergi yükünün minimallaşdırılması məqsədini daşıyır. Fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslər öz bizneslərini əldə etdikləri gəlirlərin məbləği nəzərə alınmadan, bəyannamə təqdim etmədən, kiçik bir sabit məbləğ ödəməklə həyata keçirə bilirlər.

Ancaq bəzən vergi ödəyiciləri arasında sabit vergi ilə bağlı müəyyən suallar da yaranır. Bu suallara konkrert misallar əsasında aydınlıq gətirməyə cəhd etdik.

***Sabit verginin ödəyiciləri və onların qeydiyyata alınması***

Aşağıdakı cədvəldə nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada, muzdlu işçi cəlb etmədən məşğul olan fiziki şəxslər sabit verginin ödəyiciləridir: (*bax:* Cədvəl 1).

Sabit verginin ödəyicisi olan fiziki şəxs, əgər vergi orqanında uçota alınmamışdırsa, ilk növbədə qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etməli və VÖEN əldə etməlidir. Fiziki şəxs yuxarıda qeyd olunan fəaliyyətə başlayanadək vergi orqanından «Sadələşmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. Həmin qəbz - yazılı müraciət etdikdə iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət etdikdə isə real vaxt rejimində verilir. Şəxs öz istəyinə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» ala bilər.

***Sabit verginin hesablanması qaydası***

Cədvəldə nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq verginin məbləği aşağıdakı əmsallar tətbiq olunmaqla müəyyən edilir: (*bax:* Cədvəl 2).

**misal**

Şənliklərdə aparıcılıqla məşğul olan şəxsin aylıq sabit vergisinin məbləği ayrı-ayrı şəhərlərdə aşağıdakı qaydada hesablanır:

*Bakı şəhərində:*
30 manat*2 əmsal*1 ay = 60 manat

*Gəncə şəhərində:*
30 manat*1,5 əmsal*1 ay = 45 manat

*Şəki şəhərində:*
30 manat*1 əmsal*1 ay = 30 manat

*Qazax şəhərində:*
30 manat*0,5 əmsal*1 ay = 15 manat

***Yuxarıda adları çəkilən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxs aşağıdakı vəzifələri yerinə yetirməyə borcludur:***

- Qeyd olunduğu yerdən asılı olmayaraq, həmin fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən vergi məbləğini ödəyir;
- Eyni dövr ərzində müxtəlif əmsallar tətbiq olunan ərazilərdə fəaliyyət göstərərsə, bu zaman ən yüksək əmsal tətbiq edilən ərazi üzrə müəyyən olunmuş sabit vergi məbləğini ödəyir;
- Fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda, hər bir fəaliyyət növü üzrə ayrıca qəbz alır;
- Nağd pul hesablaşmaları zamanı alıcıya qəbz və digər ciddi hesabat blanklar təqdim etməlidir;
- Bu fəaliyyətə görə vergi orqanlarına bəyənnamə vermir.

Fəaliyyətin göstərilib-göstərilməməsindən asılı olmayaraq, ödənilən sabit vergi geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarım il və il) vergiləri ilə əvəzləşdirilmir.

Sabit verginin ödəyiciləri göstərdikləri işə (xidmətə) görə nağd pul hesablaşmaları apararkən alıcılara ciddi hesabat blankı olan qəbz təqdim etməlidirlər. Onlar fəaliyyət növünə uyğun olaraq ciddi hesabat blanklarını (alıcıya verilən qəbz formasını) öz vəsaiti hesabına bu fəaliyyəti həyata keçirən mətbəələrə verdikləri sifariş əsasında əldə edirlər.

*Cədvəl 1*

| Fəaliyyət növünün adı | Aylıq sabit vergi məbləği *(manatla)* |
|---|---|
| Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət | 30 |
| Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət | 30 |
| Çəkməçi, pinəçi | 5 |
| Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri | 10 |
| Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və digər analoji işlər | 10 |
| Nəqqaşlıq emalatxanalarının fəaliyyəti | 20 |

*Cədvəl 2*

| Region | Təbiq olunan əmsal |
|---|---|
| Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) | 2,0 |
| Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində | 1,5 |
| Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində | 1,0 |
| Digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) | 0,5 |

***Hər hansı cəza və ya maliyyə sanksiyasının tətbiqi***

Qanunvericiliklə müəyyən edilmiş ciddi hesabat blankı olan qəbzdən istifadə etmədən nağd pul hesablaşmalarının aparılması, alıcıya qəbzin verilməməsi və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 800 manat;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

«Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə vergi ödəyicisinə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında;
- təqvim ili ərzində belə hallara 2 və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

**Rəşad SADIQOV**

# Yoxlamaların elektronlaşdırılması şəffaflığı artırır

Vergi sistemində aparılan yeni islahatlar kursunun mühüm istiqamətlərindən biri yoxlamalarda müasir yanaşmaların tətbiq olunmasıdır. Sahibkarların öz vergi öhdəliklərini yerinə yetirməsi üçün mövcud sistemin daha da sadələşdirilməsini təmin edən yeniliklər tətbiq olunacaq. Vergi ödəyicilərinə xidmət sistemi iş adamlarının gözləntilərinə və tələblərinə uyğun təkmilləşdiriləcək.

Vergilər Nazirliyi keyfiyyətli və geniş spektrli elektron xidmətlər sistemi tətbiq etməklə sahibkarla vergi orqanları arasında canlı təmasları minimuma endirəcək. Qarşılıqlı təmasların tamamilə elektronlaşdırılması tərəflər arasında münasibətlərin şəffaf və aydın olmasına imkan verəcək. Yeni rəqəmsal texnologiyaların tətbiqi, inzibatçılığın rəqəmsallaşdırılması könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə xidmət edən əsas faktorlar olacaq. Müasir vergi idarəetmə sistemi vergi ödəyiciləri ilə birbaşa ünsiyyətin minimuma endirilməsi, xidmətlərin çoxunun elektron formada təqdim olunması, vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması ilə yanaşı, vergi nəzarətinin gücləndirilməsini də tələb edir. Bu baxımdan, davamlı islahatlardan biri də vergi nəzarəti proseslərinin avtomatlaşdırılmasıdır.

Sahibkarların maarifləndirilməsi, onların öz öhdəlikləri barədə davamlı olaraq məlumatlandırılması daim diqqət mərkəzində saxlanılır. 2018-ci ildə sahibkarların yoxlama və nəzarət tədbirləri ilə üzləşməməsi üçün onlarla təşviqedici işlər aparılacaq. Sahibkarlar yoxlamalarla bağlı nazirliyin internet resursları, Çağrı Mərkəzi və digər kanallarla məlumatlandırılacaq. Vergilər Nazirliyinin internet saytındakı «Vergi yoxlamaları: əsaslar və prosedurlar» səhifəsində vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamenti, eləcə də hüquqi əsasları barədə dolğun məlumatlar yerləşdirilib, həmin resursların daha da təkmilləşdirilməsi nəzərdə tutulur. Sahibkarlar həmin məlumat kanalları vasitəsilə öz təsərrüfat subyektlərində aparılan yoxlamaların predmeti, nəticələri haqqında lazımi informasiyalar əldə etmək imkanı qazanırlar. Bütün bu tədbirlərin əsas məqsədi şəffaflığı təmin etməkdir.

Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Elektron audit şöbəsinin rəhbəri Eldəniz Rəhimovun sözlərinə görə, vergi nəzarəti sisteminin əsas hissəsi hesab olunan vergi yoxlamalarının aparılmasında ən səmərəli mexanizm elektron auditin (e-audit) tətbiqidir. E-audit ən yaxşı nəzarət vasitəsi kimi vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradır, vergi orqanı əməkdaşının vergi ödəyicisinin işinə müdaxilə etməsini aradan qaldırmaqla vergi nəzarətinin aparılmasında şəffaflığı təmin edir.

E-audit ən yaxşı nəzarət vasitəsi kimi vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradır, vergi orqanı əməkdaşının vergi ödəyicisinin işinə müdaxilə etməsini aradan qaldırmaqla vergi nəzarətinin aparılmasında şəffaflığı təmin edir

Bu, həm vergi orqanları, həm də vergi ödəyiciləri üçün vaxt sərfiyyatını dəfələrlə azaldır. E-audit sayəsində vergi orqanları vergidən yayınan vergi ödəyicilərini vaxtında aşkarlaya və müvafiq tədbirlər görə bilir, nəticədə vergi intizamı güclənir, könüllü əməletmə dərəcəsinin yüksəlməsi və vergi inzibatçılığının cari xərclərinin azalması hesabına büdcə daxilolmalarında artım baş verir. Təhlillərin nəticələrinə görə, e-auditin tətbiq edildiyi təsərrüfat subyektlərində könüllü əməletmə səviyyəsi 90%-dən yüksəkdir.

Vergilər Nazirliyi inzibatçılığı təkmilləşdirərək sahibkarlarla münasibətləri partnyorluq müstəvisində qurur, inzibati metodlarla deyil, təmassız münasibətlərə keçid yolu ilə könüllü ödəmə mədəniyyətini formalaşdırmağa üstünlük verir. Qanunla müəyyən edilmiş nəzarət tədbirləri isə sahibkarlıq fəaliyyətini məhdudlaşdırmağa deyil, dövlətin iqtisadi və sosial maraqlarının qorunmasına, iqtisadi təhlükəsizliyin və inkişafın təmin olunmasına xidmət edir.

**ELBRUS**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergi islahatları iqtisadi artımın dəstəklənməsinə yönəldilib

## Asiya İnkişaf Bankı (AİB) 2018-ci ildə Azərbaycanda ÜDM-in 1,7%, 2019-cu ildə isə 2% artacağını proqnozlaşdırıb

AİB-in yeni dərc olunmuş «Asian Development Outlook 2018» hesabatında Azərbaycan iqtisadiyyatının vəziyyətinə və 2 il ərzində makroiqtisadi göstəricilərlə bağlı proqnozlara geniş yer verilib. Hesabatın müəlliflərindən olan Albert Lov və Yasuyuki Savadanın proqnozlarına görə, 2018-ci ildə Azərbaycan iqtisadiyyatı üçün təhlükə gözlənilmir. 2017-ci ildən ölkə iqtisadiyyatının tam stabilləşmə mərhələsinə qədəm qoyması nikbin ssenarilərə ciddi iqtisadi əsaslar verir və sabit iqtisadi inkişaf fonunda ümumi daxili məhsulun (ÜDM) bu il 1,7% səviyyəsində artımı proqnozlaşdırılır. İqtisadi artım əsas etibarilə qeyri-neft sektorundakı inkişaf hesabına təmin olunacaq. 2019-cu ildə isə qeyri-neft sektorunun artımı 5%-i ötməklə ümumi iqtisadi inkişafın 2%-dək yüksəlməsinə imkan yaradacaq.

Hesabatda Azərbaycan hökumətinin həyata keçirdiyi büdcə-fiskal-vergi siyasətinə diqqət çəkilərək, aparılan islahatların maliyyə intizamının artmasına, xərclərin səmərəliliyinin yüksəlməsinə və iqtisadi artımın dəstəklənməsinə yönəldiyi vurğulanıb. Qeyd edilib ki, büdcənin maliyyə ehtiyatlarının formalaşmasında neft sektorunun payının aşağı düşməsi və Dövlət Neft Fondundan büdcəyə transfertlərin yalnız iri investisiya layihələrinə yönəldilməsi, gəlirlərin vergi-gömrük daxilolmaları əsasında formalaşdırılması sabit maliyyə-büdcə sisteminin möhkəmlənməsinə imkan verir. Dövlətin gəlirlərinin formalaşmasında sənaye, tikinti, turizm, nəqliyyat sektorlarının payı əhəmiyyətli yer tutacaq. Proqnozlara əsasən, 2018-ci ildə tikintinin sabit bərpası şəraitində həmin sahədən daxil olan gəlirlər ÜDM-də 2017-ci ilə nisbətən 1,7%-ə qədər artacaq, sənaye sektorunda isə artım həm bu il, həm də 2019-cu ildə 2%-dək yüksələcək. İqtisadi fəallığın yaxşılaşması hesabına qeyri-neft sektoruna investisiya qoyuluşlarının artımı gözlənilir.

AİB-in proqnozlarına görə, 2018-ci ildə Azərbaycanda inflyasiya 7% təşkil edəcək, 2019-cu ildə isə iqtisadi artımın daha yüksək templəri və istehlak xidmətləri üzrə tələbin yüksəlməsi ilə əlaqədar qiymət indeksinin 8%-ə çatması proqnozlaşdırılır. Buna görə də inflyasiya ilə mübarizə hökumətin mühüm vəzifəsi olaraq qalmalı və əlaqələndirici qurumların sərt pul-kredit və maliyyə siyasəti həyata keçirməsi nəzərdən qaçmamalıdır. Azərbaycan Mərkəzi Bankının əsas vəzifələrindən biri 2018-2019-cu illərdə məzənnə sabitliyini qorumaq, manatın dəyərdən düşməsinin qarşısını almaq, valyuta bazarında məhdudlaşdırıcı tədbirləri və digər müdaxilələri nizamlamaqdan ibarət olacaq.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov bildirib ki, ölkəmizdə 2018-ci ildə sistem əhəmiyyətli islahatların davam etdirilməsi, bank sisteminin yaxşılaşdırılması, maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı dövlət orqanlarının koordinasiyalı fəaliyyəti, yerli və xarici biznesin stimullaşdırılması, qeyri-neft ixracı ilə məşğul olan sahibkarların ixrac qabiliyyətinin təşviqi nəzərdə tutulur. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf göstəricilərinə əsasən, 2018-2019-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldonun əldə olunacağı və bu faktorun maliyyə sabitliyinə, manatın məzənnəsinə təsir edəcəyi proqnozlaşdırılır: «2018-ci ildə dövlət tərəfindən biznes mühitinin yaxşılaşdırılması ilə bağlı yürüdülən siyasət növbəti illərdə davam etdiriləcək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran mühüm addımlar atılacaq, vergi ödəyicilərinin hüquqlarının qorunması, xidmət səviyyəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər həyata keçiriləcək. Cari ildə gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində tədbirlər davam etdiriləcək. Ölkəmiz üçün gözlənilən ən mühüm hadisələrdən biri də Azərbaycan qazının Türkiyə ərazisindən Avropaya nəqlini həyata keçirəcək TANAP layihəsinin fəaliyyətə başlaması olacaq. Bu tədbirlər qeyri-neft sahələrinin inkişaf etdirilməsi sayəsində iqtisadi artımın formalaşdırılmasına öz təsirini göstərəcək».

**E. CƏFƏRLİ**

# Avtonəqliyyat xidməti göstərən şəxslərin vergi öhdəlikləri

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər sadələşdirilmiş vergi ödəyiciləri hesab olunurlar. Bu şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş verginin vergitutma obyektidir və bu verginin dərəcələri aşağıdakı kimi müəyyən olunmuşdur:

| Daşınma növü | Ölçü vahidi | Verginin aylıq məbləği |
|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə | 1 oturacaq yeri üçün | 1,8 manat |
| Taksi ilə sərnişin daşınması | 1 ədəd nəqliyyat vasitəsi üçün | 9 manat |
| Yük daşınması | yük götürmə qabiliyyəti üçün (hər tona) | 1 manat |

Sadələşdirilmiş verginin məbləği sərnişin və yük daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq yuxarıdakı cədvəldə göstərilmiş vergi məbləğinə xüsusi əmsallar tətbiq edilməklə müəyyən edilir. Daşımalar Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında həyata keçirildikdə bu əmsal 2-yə, Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Bakı şəhəri istisna olmaqla) həyata keçirildikdə 1,5-ə bərabər olur.

Daşıma digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla yaşayış məntəqələri arasında həyata keçirildikdə (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu istisna olmaqla) 1,0 əmsalı tətbiq edilir.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir.

Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə həmin göstəricilər Daxili İşlər Nazirliyi tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

Avtomobil nəqliyyatı vasitəsilə sərnişin və yük daşımalarına görə aylıq sadələşdirilmiş vergi hər bir avtonəqliyyat vasitəsi üçün - yuxarıdakı cədvəldə göstərilmiş sadələşdirilmiş verginin ölçü vahidini verginin aylıq məbləğinə və daşımanın növündən və həyata keçirildiyi ərazidən asılı olaraq müəyyən edilmiş əmsala vurmaqla hesablanır və dövlət büdcəsinə ödənilir (misal).

Vergi ödəyicisi təqvim ayının sonunadək ərizə ilə birlikdə sadələşdirilmiş verginin tam məbləğdə ödənilməsini təsdiq edən bank ödəniş sənədini təqdim etməklə öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» alır.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımanı həyata keçirən vergi ödəyicilərinə münasibətdə Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyindən, digər hallarda isə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar.

**misal**

Oturacaqlarının sayı 17 ədəd olan mikroavtobusla Bakı şəhərində sərnişin daşınmasını həyata keçirirsiniz. Bu zaman Sizin ödəyəcəyiniz verginin aylıq məbləği aşağıdakı kimi hesablanacaq:

Oturacaqların sayı 17 ədəd olduğundan sadələşdirilmiş verginin aylıq məbləği 17 x 1,8 = 30,6 manat olacaq və Sizin fəaliyyətiniz Bakı şəhərində həyata keçirildiyindən ödəyəcəyiniz sadələşdirilmiş verginin aylıq məbləği 30,6 x 2= 61,2 manat olacaqdır.

«Fərqlənmə nişanı» vergi ödəyicisinin ərizəsinə əsasən 2 iş günündən gec olmayaraq verilir. Avtonəqliyyat xidməti göstərən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir. Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

Sadələşdirilmiş verginin ödənilməsinə avtonəqliyyat vasitəsinin sahibi, nəqliyyat vasitəsi vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edildikdə isə vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyır. Hüquqi şəxsin balansında olan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları hüquqi şəxsin özü tərəfindən həyata keçirildikdə sadələşdirilmiş vergini həmin hüquqi şəxs ödəyir. Fəaliyyəti yalnız avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarından ibarət olan vergi ödəyiciləri bəyannamə vermirlər.

Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərinin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün heç bir haqq ödənilmədən «Xüsusi fərqlənmə nişanı» alınır. Bu nişanı almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarəyə verərkən, habelə digər məqsədlər üçün istifadə edərkən ən azı 1 iş günü əvvəl bu nişanı geri qaytarmalıdır.

Xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Mərkəzi Bankın, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün «Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmır.

«Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Rəşad SADIQOV**

# Gecikdirilmiş ödənişlər ünvanına çatdırılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə daxil olan vətəndaş müraciətlərinin bir qismində ayrı-ayrı işəgötürənlər tərəfindən əmək haqlarından, zərərə görə ödənclərdən və s. ibarət sosial xarakterli ödənişlərin işçilərə ödənilməsinin gecikdirildiyi ifadə olunub.

Dövlət Əmək Müfəttişliyi Xidməti həmin müraciətlərin hər biri ilə əlaqədar qanunvericiliyin tələblərinə uyğun şəkildə tədbirlərin görülməsini və bu ilin birinci rübündə 20 min manatdan artıq gecikdirilmiş sosial xarakterli ödənişlərin işəgötürənlər tərəfindən işçilərə ödənilməsini təmin edib. Həmin vəsaitin 51,1 faizi əmək haqlarından, 43,9 faizi zərərə görə ödənclərdən, qalan hissəsi işəgötürənlər tərəfindən ödənilməli olan sosial müavinət və kompensasiyalardan ibarət olub.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Maliyyə Komitəsinə üzvlük müddəti uzadılıb.

Bu ilin birinci rübündə ölkəmizdə istehsal olunan məhsulların çoxu İtaliya, İsrail və Türkiyəyə ixrac edilib.

Aprelin 17-də Bakıda Dünya Bankı Qrupu və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının birgə təşkil etdikləri imzalanma mərasimində Avropa və Mərkəzi Asiyada Kredit Məlumatları Təchizatçıları Assosiasiyası rəsmən təsis edilib.

Aprelin 17-18-də və mayın 22-23-də Bakıda qadın sahibkarlar üçün «Rəqəmsal marketinq» mövzusunda seminar keçiriləcək.

Aprelin 17-də 22 ölkədən 100-ə yaxın şirkətin iştirak etdiyi «Rəqəmsal bankçılıq və təhlükəsizlik» mövzusunda «I MDB Beynəlxalq bankçılıq sərgi-konfransı» öz işinə başlayıb.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Elektron xidmətlərdən vergi tutulması

**Vergi qanunvericiliyinə əsasən, Azərbaycanda qeydiyyatda olmayan şirkətdən elektron iş və xidmətlər alan zaman vergi müştəri tərəfindən ödənilir. Bəs bu ödəniş necə tutulur?**

ABA-nın «Ödəniş sistemləri və Alternativ Xidmət Kanalları üzrə» ekspert qrupunun üzvü Teymur Axundov bildirmişdir ki, müştəri öz ödəniş kartı ilə xaricdən internet vasitəsilə iş və xidmət aldığı zaman bu vəsaitin cəlb edilməsi iki yolla baş verir. Bunun səbəbi müştərinin kart hesabı ilə əlaqədardır: «Əgər hesab dollardadırsa, bu proses komissiyasız baş verir. Manatla olduqda isə konvertasiya üçün komissiya haqqı tutulur. Həmçinin manatla ödəniş edən zaman valyuta kursunun dəyişməsi müştəri üçün borc yaranmasına gətirib çıxara bilər.

Bunun səbəbini isə ödənişlərin vergiyə cəlb edilmə prosesinə baxdıqda görmək mümkündür».

Mütəxəssisin hesablamalarına görə, müştərinin ödənişi dollar vasitəsilə edilirsə və iş və xidmətin (məsələn, 100 dollarlıq iş və xidmətin) ifadə olunduğu valyuta ilə müştərinin kartının valyutası eynidirsə, Beynəlxalq Ödəniş Sistemləri (BÖS) (Visa, MasterCard) müştərinin kartından 100 dollar tutur, amma bank hələ bu əməliyyatı görmür. Əməliyyatı prosessinq mərkəzi (AzeriCard, Millikart və s.) görür. Bankla prosessinq mərkəzi arasında razılaşmaya əsasən Mərkəz konkret MCC kodlar (hər bir əməliyyat üzrə ödənişlər Visa, MasterCard tərəfindən müəyyən edilən kodlar üzərindən gedir. Bu kodlar MCC kodlar adlanır. Kodlarda ödənişin nəyə aid olduğu bilinir, məsələn, təhsil xidməti, səhiyyə xidməti, hər hansı mal, iş və xidmət) üzrə əməliyyatlara vergi hesablanmasını da sazlayır. Yəni müştəri 100 dollarlıq xidməti alan zaman prossesinq mərkəzinin sazlamasına uyğun kartdan 100 dollar, «+18%» tutulur. Bu məbləğ yoxdursa, əməliyyat həyata keçirilmir. Bank isə bu əməliyyatı 2-3 gün sonra görür, yəni BÖS tərəfindən ödənişin məlumatları (filebank) banka daxil olanda bank 100 dolları öz hesabına 18 dolları isə vergi hesabına, cari günün kursu ilə, manatla köçürür. Nəticədə dollar hesabı olan vergi ödəyicisi aşağıdakı miqdarda ödəniş edir:

--------------

Ümumi ödəniş = 100 dollar + 18% vergi = 118 dollar

--------------

Əgər ödəniş manat vasitəsilə həyata keçirilibsə, müştəri iş və xidmət alan zaman ödənişi avtorizasiya edərək təsdiq etdikdə, həmin günün kursu ilə 100 dollar + 18% + 4%=122 dollar (Bu təqribi rəqəmdir, 4% bankın komissiyasıdır və bankdan banka fərqlənə bilər) ekvivalentində vəsait konvertasiya olunur və kartda bloklanır. Sonradan isə dollar hesablı ödəniş üçün qeyd etdiyimiz oxşar əməliyyat burada davam edir. Əgər məlumat banka daxil olan gün kurs dəyişərsə (dolların kursu qalxarsa) və kartda bu fərqi ödəyən vəsait olmazsa, o zaman yaranan fərq müştərinin banka borcu kimi qeydə alınır. Nəticədə manat hesabı olan vergi ödəyicisi aşağıdakı miqdarda ödəniş edir:

--------------

Ümumi ödəniş = 100 dollar x əməliyyat günün məzənnəsi + 18% vergi + bank komissiyası ± valyuta kursundakı dəyişiklik

--------------

Vergilər Nazirliyi və Azərbaycan Banklar Assosiasiyası (ABA) arasında razılaşmaya əsasən, bu linkdəki siyahıda vergi tutulacaq iş və xidmətlər (MCC kodlara uyğun), eləcə də tətbiq ediləcək vergi dərəcəsi göstərilmişdir.

Xüsusi olaraq qeyd edək ki, elektron ticarətdə vergi yalnız iş və xidmətə aiddir, mal alan zaman vergi tətbiq olunmur.

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentindən aldığımız məlumata görə, Vergi Məcəlləsinin 168.1.5-ci, 169.1-ci və 169.3-cü maddələrinə edilən əlavə və dəyişikliklər virtual məkanda ƏDV-nin tətbiqini tənzimləyir. Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, bu məkanda iş və xidmət təqdim edildikdə və ya lotereya, digər yarış və müsabiqə keçirildikdə vergi tutulan əməliyyatın yeri kimi xidmətlərin alıcısının və lotereya, yarış və müsabiqənin iştirakçısının olduğu yer müəyyən olunur və həmin dövlətdə də ƏDV tətbiq olunur.

İşin və xidmətin alıcısı, lotereya, digər yarış və müsabiqənin iştirakçısı vergi ödəyicisi olduqda ƏDV-ni həmin şəxs özü hesablayır və büdcəyə ödədikdən sonra Vergi Məcəlləsinin tələblərinə riayət etmək şərti ilə ödənilmiş məbləği əvəzləşdirə bilir.

**misal**

Azərbaycan Respublikasının vergi orqanlarında qeydiyyatda olan «A» müəssisəsi tərəfindən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentdən ay ərzində 400 000 manat məbləğində elektron qaydada xidmət alınmışdır.

Bu əməliyyatların hamısı ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentin göstərdiyi xidmətlər və ya gördüyü işlər üzrə əməliyyatlara aid olmuşdur və 18% dərəcə ilə ƏDV məbləği 72 000 (400 000*18%) manat təşkil etmişdir. Bu halda vergi ödəyicisi olan «A» müəssisəsi vergi orqanına bəyannamə təqdim etməli və həmin məbləği bəyannamənin 306,2 kodlu sətrində əks etdirməli və hesablanmış vergini dövlət büdcəsinə ödəməlidir.

İşin və xidmətin alıcısı, lotereya, digər yarış və müsabiqənin iştirakçısı vergi ödəyicisi olmadıqda isə ödənişi aparan yerli bank və ya xarici bankın respublikadakı filialı ƏDV-ni hesablayaraq alıcının vəsaiti hesabına büdcəyə ödəyir, tutulmuş ƏDV isə bank və ya filial tərəfindən əvəzləşdirilmir.

**Fəxriyyə İKRAMQIZI**

## Qanun pozuntusu aşkar edilib

Vergilər Nazirliyi tərəfindən Bakı şəhəri ərazisində keçirilmiş vergi nəzarəti tədbirləri zamanı "Bon Appetit" şirniyyat mağazaları şəbəkəsində qanun pozuntularının olduğu aşkar edilib. Keçirilmiş operativ vergi nəzarəti tədbirləri zamanı müəyyən edilib ki, vergi ödəyicisi tərəfindən ikili mühasibat aparılmaqla dövlət büdcəsinə ödənilməli vergilər yayındırılıb. Vergi ödəyicisinin Badamdar qəsəbəsində yerləşən sexinə baxış zamanı isə əmək müqaviləsi olmayan 55 nəfər vətəndaşın işə cəlb edildiyi müəyyən olunub.

Aşkar edilmiş hallarla bağlı aktlar tərtib edilib, vergi ödəyicisinə məxsus «qara mühasibat» sənədləri götürülüb. İşçilərdən alınmış izahatlardan aydın olub ki, onların heç biri ilə əmək müqaviləsi bağlanılmayıb. Faktla bağlı araşdırma aparılır.

## Ümumi daxili məhsul istehsalı artıb

2018-ci ilin yanvar-mart aylarında ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrünə nisbətən 2,3 faiz artaraq 17185,1 milyon manata çatıb. Bu dövrdə tikinti sektoru istisna olmaqla, iqtisadiyyatın bütün sahələrində istehsalın artımı müşahidə edilib. 2017-ci ilin eyni dövrü ilə müqayisədə iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 2,9 faiz, neft sektorunda isə 1,5 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 1755,7 manata bərabər olub.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**Yanvar-mart aylarında...**

- Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivləri təqribən **2 milyard** ABŞ dollarına yaxın artıb.
- Ölkəyə gələn əcnəbi vətəndaşların sayı **12,6%** artıb.
- Dəniz nəqliyyatı ilə **66 min 499** ton yük ixrac olunub.
- Neft və neft-kimya məhsullarının ixracı **413 min** ton təşkil edib.
- Ölkə üzrə neft hasilatı **2,4** faiz, qaz hasilatı isə **5,2%** artıb.
- İqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala qoyulmuş **2869,2 milyon** manat vəsaitin **1456,2 milyon** manatı və ya **50,8%**-i qeyri-neft sektoruna yönəldilib. Bu sektorda investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə **41,2%** artıb.

## 2018-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin mart ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın** təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 1-ci rübünə görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsini,
- Ödəmə mənbəyində tutulan verginin bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Cari ilin 1-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin bəyannaməsi (ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri istisna olmaqla) **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və mart ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Xüsusi notariuslar gəlir vergisi bəyannaməsini

cari ilin **aprel ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və mart ayı üzrə hesablanmış gəlir vergisini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Dövlər rüsumu haqqında hesabat

cari ilin **aprel ayının 20-dək** vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin aprel və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin aprel və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqavilələni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# BTP rəqəmsal iqtisadiyyata vergi tətbiqini şərh edib

Beynəlxalq Ticarət Palatası (BTP) Avropa İttifaqının (Aİ) rəqəmsal şirkətlərin gəlirlərinə müvəqqəti şəkildə aksiz vergisi tətbiq etmək barədə təklifini müzakirə edərək öz təklifini irəli sürmüşdür. Palatanın təklifinə əsasən, 2020-ci ilə qədər rəqəmsal iqtisadiyyat üçün beynəlxalq qanunvericilik aktlarında ümumi konsensusa gəlmək üzərində işləmək zəruridir. Aİ-nin və OECD-nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) təkliflərinə cavab olaraq BTP-nin təmsilçisi bildirmişdir ki, OECD-nin cavabı gəlirlərin bölünməsi və vergitutma qaydaları ilə bağlı texniki cəhətdən mürəkkəb olan bir sıra məsələlərin qarşıya çıxdığını təsdiq edir. Bu məsələlərin həlli dərin təhlil aparılmasını tələb edir.

Vergitutma üzrə Müvəqqəti Nəzarət Komissiyanın sədri və «Siemens AG» şirkətinin qlobal vergi xidmətinin rəhbəri Xristian Kaeser qeyd etmişdir ki, BTP iqtisadi artıma şərait yaradan rəqəmsal iqtisadiyyatın vergiyə cəlb olunması ilə bağlı OECD-nin çoxtərəfli yanaşmasını və beynəlxalq miqyasda göstərdiyi səyləri alqışlayır: «Biz beynəlxalq vergi qanunvericilik səviyyəsində tədbirlər hazırlanmasını və rəqəmsal iqtisadiyyatın üzləşdiyi vergi problemlərinin həllində kompromisə nail olmaq üçün dünya miqyasında səylər göstərilməsini təkidlə tövsiyə edirik».

Palatanın açıqlamasında bildirilmişdir ki, «rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi ilə bağlı mümkün problemlərin həllini ölkələrin birgə müzakirə və həll etməsinin zəruri olduğu özünü bir daha aydın göstərir. Başa düşülməlidir ki, qarşılıqlı kompromislər yolu ilə əldə olunan qərarlar uzunmüddətli olmalı və geniş miqyasda tətbiq edilməlidir».

# Rusiyada rüsum həddi dəyişdiriləcək

Maliyyə Nazirliyi qarşıdan gələn iyul ayının 1-dən xarici internet mağazalardan 500 avrodan, 2019-cu ildən sonra isə 200 avrodan artıq məbləğdə alış-veriş üçün rüsum tətbiq olunmasını təklif etmişdir. Bu təklif nazirliyin hazırladığı qərar layihəsinə daxildir. Hazırda Rusiyada rüsumsuz internet alış-veriş üzrə hədd 1000 avro təşkil edir. Qanun layihəsi ilə bağlı verilmiş izahatda bildirilir ki, bu həddin aşağı salınmasına səbəb transsərhəd internet ticarətini adi ticarətlə bərabərləşdirmək və yerli malların istehsalını stimullaşdırmaqdır. Müəyyənlədirilmiş norma Avrasiya İqtisadi İttifaqının bütün ərazisinə şamil ediləcək.

Rusiya, Belarus, Qazaxıstan, Ermənistan və Qırğızıstandan ibarət İqtisadi İttifaqa daxil olan ölkələr rüsumsuz internet ticarət həddini bu il fevralın əvvəlində 1000 avro müəyyənləşdirmək barədə razılığa gəlmişdilər. Rusiyanın Baş naziri Dmitri Medvedyev o vaxt bəyan etmişdi ki, bu hədd gələn il yanvarın 1-dən 500 avroya endiriləcək.

Bəzi ölkələr isə artıq internet üzərindən rüsumsuz alış-veriş həddini birtərəfli şəkildə aşağı salmışdı. Məsələn, Belarus Respublikasında bu hədd cəmi 22 avro təşkil edir.

# İsveçdə miqrantlar üçün «gediş vergisi» tətbiq olunmayacaq

Hökumət tərəfindən verilmiş açıqlamada qeyd edilmişdir ki, ictimaiyyətdə bu məsələ ilə bağlı ciddi narahatlıqlar yarandığına görə ölkədən çıxış üçün vergi tutulmayacaq.

Keçən ilin noyabr ayında vergi orqanı vergidən yayınmağın qarşısının alınması üçün belə bir tədbirə əl atılması barədə təklif irəli sürmüşdü. Təklifin mahiyyəti emiqrantlar son on il ərzində İsveçdə beş il yaşadığı halda həmin şəxslərin artan kapital üzrə reallaşdırılmamış gəlirlərindən 30 faizlik vergi tutulmasından ibarət idi.

# Vergi məsləhətçiləri fəaliyyətə başlayır

Aprelin 9-10-da Belarus Respublikasında ixtisaslaşmış vergi məsləhətçisi şəhadətnaməsi almaq iddiasında olan fiziki şəxslərin ilk imtahanı keçirilmişdir. İxtisas imtahanından uğurla keçən 7 fiziki şəxs vergi məsləhətçisi şəhadətnaməsi almışdır və onların siyahısı ilə Vergilər və Yığımlar Nazirliyinin saytında tanış olmaq mümkündür.

Qeyd edək ki, Belarusda «Vergi məsləhətçiliyi haqqında» Qanun keçən ilin sonundan qüvvəyə minmişdir. Hökumətin mövqeyinə görə, qanunun tətbiqi biznesin təsadüfi səhvlərdən və vergi qanunvericilyinin pozulmasından qorunmasına xidmət edəcək, eləcə də vergitutma sahəsində korrupsiya risklərini azaldacaq.

Ölkə rəhbərliyinin vədinə görə, Belarusda vergi məsləhətçiləri institutunun qabaqcıl Qərb təcrübəsi əsasında yaradılması nəzərdə tutulur.

# Bloqerlərdən vergi tutulur

Onlayn biznesin, eləcə də sosial şəbəkələrin vergiyə cəlb edilməsi ilə bağlı dünyada münasibətlər hələ tam formalaşmamışdır və bu sahədə axtarışlar davam edir. Atılan bəzi addımlar isə təəccüb doğurur - Tanzaniyada olduğu kimi. İndi bu ölkədə öz onlayn bloqunu yaratmaq istəyənlər büdcəyə 900 dollar məbləğində lisenziya yığımı ödəməlidirlər. Yeni qüvvəyə minmiş qanuna əsasən, bloq yaratmaq məqsədilə ərizə vermək üçün 44, ilkin lisenziya üçün 442, illik yığım kimi isə 442 ABŞ dolları məbləğində vəsait ödənilməlidir.

Onu da qeyd etməyə dəyər ki, adambaşına düşən gəlirin 900 dollar olduğu, əhalisinin hər beş nəfərindən birinin yoxsulluq həddində yaşadığı bir ölkə üçün bu, təbii ki, böyük məbləğdir.

# Böyük Britaniyada «şəkər vergisi» tutulur



Aprelin 6-da qüvvəyə minmiş «şəkər vergisi»nin tətbiqində əsas məqsəd uşaqların piylənməsinə qarşı mübarizə aparmaqdır. Bu yığım barədə müzakirələrə iki il əvvəl başlanmışdı və o vaxtdan bəri ölkədə şirin içkilərin tərkibində işlədilən şəkərin miqdarı 45 milyon kiloqram azaldılmışdır. Qida istehsalçıları öz məhsullarının reseptinə yenidən baxaraq vergi tutulan həddi aşmamaq üçün müvafiq addımlar atmışlar.

Böyük Britaniyanın Səhiyyə Nazirliyindən bildirilmişdir ki, şəkər vergisinin tətbiqi məsələyə novatorluqla yanaşmadır və bunun şirniyyat istehlakının azalmasına əsaslı təsiri var. Bundan əlavə, hökumət uşaqlar üçün idman proqramlarını və məktəblilər üçün sağlam yeməklərin istehsalını maliyyələşdirəcək.

Britaniya Xəzinədarlığının hesablamasına görə, istehsalçıların içkilərin tərkibindəki şəkəri azaltması sayəsində birinci il «şəkər vergisi»ndən büdcəyə cəmi 240 milyon funt sterlinq vəsait daxil olacaq. Bu göstərici əvvəlcə proqnozlaşdırıldığının təxminən yarısına bərabərdir: ilkin olaraq bu vergi üzrə 520 milyon funt sterlinq vəsait yığılacağı planlaşdırılmışdı.

Böyük Britaniyanın şirin içki istehsalı ilə məşğul olan «Coca-Cola», «Britvic» və «Lucozade Ribena Suntory» kimi aparıcı şirkətlərinin hamısı öz məhsullarının tərkibində dəyişiklik etmişlər. Buna baxmayaraq ölkədə ən çox satılan «Coca-Cola Classic» içkisinə görə şəkər vergisi ödənilməli olacaq. «Tesco», «Asda» və «Morrisons» ticarət şəbəkələri də brend içkilərin reseptinə yenidən baxmaq məcburiyyətində qalmışdır: indi onlar içkinin tərkibindəki şəkərin miqdarının vergi üçün müəyyənləşdirilmiş həddən artıq olmamasına xüsusi əhəmiyyət verirlər.

# Malayziya palma yağı üçün ixrac rüsumunun tətbiqinə ara verir

Hökumət palma yağının ixracına tətbiq olunan yığımın müvəqqəti dayandırılmasının müddətini aprel ayının sonuna qədər uzatmışdır. Bu addımın atılması beynəlxalq bazarda həmin məhsulun qiymətinin ucuzlaşmasının qarşısını almaq üçün nəzərdə tutulmuşdur. Malayziyada vergi fasiləsi bu il yanvarın 8-dən aprelin 7-dək müəyyənləşdirilmişdi.

Qeyd etmək yerinə düşər ki, bu ölkənin ixracatında mühüm yer tutan palma yağı üçün ixrac yığımlarının 4,5-8,5 faiz arasında dəyişən çoxsəviyyəli sistemi mövcuddur. Bu yığım bazarda yağın bir tonunun qiyməti 524,35 dollardan artıq olanda qüvvəyə minir.

«MIDF Research» şirkətinin analitikləri belə bir tədbirə əl atılmasına müsbət qiymət vermişlər. Onların rəyinə əsasən, vergi fasiləsi Malayziyada istehsal edilən palma yağının beynəlxalq bazardakı rəqabət mövqeyini yaxşılaşdıracaq. İxrac yığımı üçün müəyyənləşdirilmiş fasilənin müddətinin uzadılması xam palma yağına xarici bazarda olan tələbi artıra və Malayziyada yağ ehtiyatlarının azalmasına imkan yarada bilər. Bunun nəticəsində isə müasir məişətdə özünə möhkəm yet tutmuş palma yağının qiymətinin yüksəlməsinə şərait yaranmış olar.

Yaxın Şərq ölkələrindəki yüksək tələbat fonunda Malayziyadakı məhsul ehtiyatlarının iyun ayına qədər azalacağı gözlənilir. Proqnozlara əsasən, 2018-ci ilin ikinci yarısında ölkədə ənənəvi qaydada palma yağının istehsalını artırmaq mümkün ola biləcək.

# Rusiya ABŞ sanksiyalarına qarşı tədbirlər görür

Rusiya Birbaşa İnvestisiyalar Fondunun baş direktoru Kirill Dmitriyev mətbuata açıqlama verərək demişdir ki, Rusiya hökuməti ABŞ-ın sanksiyalarına qarşı cavab tədbiri kimi Amerika şirkətləri üçün əlavə vergilər tətbiq edə bilər. O, qeyd etmişdir: «İstisana deyil ki, sanksiyaların yeni silsiləsi başlayacağı təqdirdə Rusiya hökuməti də hər hansı cavab tədbirlərinin görülməsinə ehtiyac olub-olmadığı barədə, o cümlədən sanksiyaların təsirinin aradan qaldırılması üçün Amerika şirkətlərinə əlavə vergilər tətbiq etməyin mümkünlüyü barədə düşünəcək».

Amerika tərəfinin sanksiyaları ilə bağlı atılan addımlardan biri budur ki, Rusiya hökuməti sanksiyaların təsirinə məruz qalmış oliqarxlara yardım etmək üçün offşorlar yaratmaq niyyətindədir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Əsl adı Əli Əhməd Səid Əsbər olan, həyatının böyük hissəsini Livan və Fransada keçirən və əsərlərini doğma ərəb dilində yazan, həmçinin «Yeni poeziya» hərəkatının öndə gedən nümayəndələrindən biri hesab olunan ərəb şairlərindən biri; 2.Alken sinfinə daxil olan doymamış karbohidrogen; 3.Asiya və Afrika səhralarında əsən çox şiddətli, isti və quru külək; 4.İsmayıllı rayonunda kənd; 5.Azərbaycanın qədim milli xörəklərindən biri; 6.Səhralarda küləyin təsiri altında sovrulan qum təpəsi; 9.Kollektiv yürüşü müşayiət etmək və müəyyən əhval-ruhiyyə yaratmaq üçün musiqi əsəri; 13.Havanın əsas tərkib hissəsini təşkil edən maddələrdən biri; 15.Bütün dövlətlərdə qəbul edilmiş hərbi dəniz donanmasında yüksək rütbə; 16.Səmanın cənub yarımkürəsində bürc; 17.İri dəniz məməlisi; 18.Rusiyada XX əsrin əvvələrində iki futbol klubunun birləşməsindən əmələ gələn yeni futbol klubunun adı; 20.Yundan və ya pambıqdan toxunan xovsuz xalça növü; 21.Qara dəniz sahilində kurort-qəsəbə (Gürcüstan). **Soldan sağa:** 1.Naxçıvan şəhərinin cənub-şərqində, Araz çayı sahilində yerləşən hərbi istehkam tipli qala; 5.Xalq arasında yayılmış adət, ənənə; 7.Nikbinlik; 8.Cəlilabad rayonunda kənd; 10.Xanəndə, Azərbaycanın xalq artistinin adı (1934-2008); 11.ABŞ-da ştat; 12.Karotin, C vitamini, şəkər, üzvi turşular və pektin maddələrlə zəngin olan bitki; 14.Xörək hazırlayan usta; 19.ABŞ kinorejissoru və prodüserinin soyadı. «Xaç atası» filminin ssenaristi; 21.RF-nin Lipetsk vilayətində şəhər; 22.Qadın adı; 23.Kartof, kələm, çuğundur, yumurta və sirkə ilə hazırlanan soyuq yemək (qəlyanaltı); 24.Havaya sovrulan torpaq dənəcikləri; 25.Süsənkimilər fəsiləsindən çoxillik bitki növü.



*Yundan və ya pambıqdan toxunan xovsuz xalça növü*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Moskva; 2.Halogen; 3.Çanal; 4.Anket; 5.Tulup; 6.Süvari; 9.Azər; 13. «Aida»; 15.Monblan; 16.Şəfiqə *(Axundova)*; 17.Arnold *(Şvartsenegger)*; 18.Sfinks; 20.Əyani; 21.Mamuk (xan). **Soldan sağa:** 1.Mahaçqala; 5.Tüs; 7.Saloniki; 8.Alov; 10.Vagil; 11.Təzəpir; 12.Andar (xan); 14.Kreml; 19.Ələmdar; 21.Manaf *(Süleymanov)*; 22.İran; 23.Formalin; 24.Əmi; 25.Dodekanes.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Bakıda keçirilən Avropa çempionatına yekun vurulub

**Milli Gimnastika Arenasında keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatı başa çatıb. Həm böyüklər, həm də gənclər arasında keçirilən çempionatda 25 ölkədən 400-dən çox idmançı mübarizə aparıb. Dörd gün davam edən Avropa çempionatında Azərbaycan gimnastları bir qızıl və iki gümüş medal qazanıblar.**



Azərbaycanı oğlanlar arasında tamblinq yarışında təmsil edən Mixail Malkin 77,400 xal toplayaraq Avropa çempionu olub. Qadınlar arasında isə batut gimnastikası üzrə yarışlarda təmsilçilərimiz Veronika Zemlyanaya və Svetlana Makştarova cütlüyü gümüş medala layiq görülüblər.

Yarışın sonuncu günündə Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov növbəti - 27-ci Avropa çempionatına ev sahibliyi edəcək İsveç Gimnastika Federasiyasının nümayəndələrinə bayrağı təqdim edib.

Qeyd edək ki, 26-cı Avropa çempionatında yeniyetmə gimnastlar 2018-ci ildə keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına, böyük gimnastlar isə 2019-cu ildə təşkil olunacaq II Avropa Oyunlarına lisenziya əldə ediblər.

# Asayiş keşikçiləri tatamidə qarşı-qarşıya gəldilər



Azərbaycan polisinin 100 illik yubileyi münasibətilə Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşları arasında cüdo üzrə turnir keçirilib.

Nazirliyin İdman Cəmiyyətində keçirilən yarışda ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən 10 komandanın heyətində 80 idmançı qələbə uğrunda mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda komanda birinciliyində ilk üçlükdə Əlahiddə Çevik Polis Alayının, DİN Daxili Qoşunlarının Baş İdarəsinin və Polis Akademiyasının əməkdaşları qərarlaşıblar. Müvafiq olaraq öz çəki dərəcələrində güclərini sınayan K.Məmmədli (62 kiloqram, DQ), R.Diniyev (66 kiloqram, PA), F.Mikayılov (73 kiloqram, Gəncə ŞBPİ), A.Fətullayev (81 kiloqram, ƏÇPA), H.Cəbiyev (90 kiloqram, ƏÇPA), K.Abdullaxanlı (100 kiloqram, BMİ) və A.Mehrəliyev (+100 kiloqram, ƏÇPA) yarışın baş mükafatını qazanaraq çempion adını qazanıblar.

Yarışların idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Seymur Qurbanbəyov və polis kapitanı Əlişan Tunc iştirak ediblər. Sonda qaliblərə medallar, diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

# Dünya çempionatına dəstək məqsədi daşıyan yarışlara start verildi




Velosiped idmanının BMX növü üzrə iyunun 5-9-da Bakıda keçiriləcək dünya çempionatının məktəblilər arasında təbliği və onların velosiped idman növünə marağının artırılması məqsədilə kütləvi idman tədbirlərinin rayondaxili mərhələsinə başlanılıb. Yarışlar Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərləri, Abşeron, İsmayıllı, Zaqatala rayonları əhatə olunmaqla Təhsil Nazirliyi və Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi, «Təhsil» Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Bakı şəhəri Xətai rayonu 17 nömrəli tam orta məktəbin idman meydançasında keçirilən yarışlara bu rayon üzrə 32 məktəbdən 200-dək şagird qatılıb. Yarışın nəticəsinə əsasən birinci yerə 29, ikinci yerə 138 və üçüncü yerə 17 nömrəli tam orta məktəblərin komandaları layiq görülüb. Qaliblərə kubok və diplomlar təqdim olunub.

Kütləvi idman tədbirlərinin keçirilməsinin məqsədi velosiped idman növünü məktəblilər arasında təbliğ etmək, onların idmana marağını artırmaq, məktəbliləri sağlam həyat tərzinə cəlb etməkdir.

İyunun 2-dək davam edəcək kütləvi idman tədbirlərinə dörd mindən çox məktəblinin qatılacağı gözlənilir. Yarışlar Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, 2018-ci il iyunun 5-dən 9-dək Bakı şəhərində velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatının keçirilməsi ilə əlaqədar təşkil olunub.

# Avropa çempionatı davam edir



Slovakiyanın Vısokiye Tatrı şəhərində qadın şahmatçılar arasında Avropa çempionatı davam edir. Yeddinci turda rusiyalı Valentina Qunina öz həmvətəni Mariya Muzıçuka qalib gəlib. Onun aktivində 6 xal var. Altı şahmatçı liderdən yarım xal geridə qalır. Beş xal toplayan şahmatçılar, o cümlədən azərbaycanlı Günay Məmmədzadə 8-17-ci yerləri bölüşürlər. Azərbaycanın iki təmsilçisi - Ülviyyə Fətəliyeva və Xanım Balacayevanın aktivində 4 xal var. Gülnar Məmmədova və Türkan Məmmədyarova hərəyə 3,5 xal, Zeynəb Məmmədyarova isə 3 xal toplayıb.

Yarışlar İsveçrə sistemi üzrə 11 turda keçirilir. Avropa birinciliyində əsas mükafatlardan əlavə, qadınlar arasında nokaut sistemi üzrə dünya çempionatına 14 vəsiqə uğrunda mübarizə də aparılacaq. Turnirin qalibi aprelin 19-da bəlli olacaq.

## mozaika

robototexnika

# Dron jestə və səsə reaksiya verir

«Amazon» şirkəti insanın jest və səs əmrlərinə reaksiya vermək imkanına malik dronu patentləşdirib. Yaxın zamanda ABŞ-ın Patentlər və Ticarət Markaları üzrə İdarəsi (USPTO) «Amazon»un 2016-cı ilin yayında rəsmiləşdirdiyi dronlar üçün yeni texnologiya haqqında patentinin sifarişini təsdiqləyib. Sənəddə insanın jestləri və səsinə reaksiya vermək imkanına malik pilotsuz təyyarələr təsvir edilir. Bu siqnallar işıq və səs tənzimləyiciləri ilə oxunacaq və mövcud məlumat bazası ilə müqayisə olunacaq. Sonra dron əmrləri analiz etməklə müştəriyə yaxınlaşacaq (əgər müştəri jestlə onu yanına çağırırsa) və ya əksinə, kənara uçacaq (əgər insan jestlə ona kənarlaşmağı əmr edirsə). Lakin şirkət dronların konkret olaraq reaksiya verəcəyi əmrləri dəqiqləşdirməyib.

Patentin «Amazon»da tətbiq olunma vaxtı haqqında hələlik məlumat verilmir. Şirkət kifayət qədər aktiv olaraq dron-kuryer xidmətinin ideyasını hazırlasa da, bu qurğuların istifadə olunması üçün müəyyən icazələr alınmalıdır.




Cari ilin fevral ayında «Samsung» şirkətinin istifadəçinin jest və səs əmrlərinə reaksiya vermək, həmçinin onun üzünü və gözlərinin hərəkətini izləmək imkanına malik patenti – «uçan ekran» təqdim olunub.

texnologiya

# Divar kağızı yanğın barədə xəbərdarlıq edir

Yanğın əleyhinə divar kağızları xüsusi elektrik keçiriciliyinə malik materialdan yaradılıb. Belə materialın parçasına quraşdırılmış, qrafendən hazırlanmış sensor səsli siqnalizasiyanı işə salır.

Şanxay Keramika İnstitutunun alimləri material kimi hidroksiapatitdən istifadə ediblər. Bu maddə sümük və dişlərin əsas komponentini təşkil edir. Hidroksiapatit kifayət qədər kövrək və bərk maddədir. Lakin alimlər bu materialdan divar kağızlarının yaradılması üçün kifayət qədər elastik olan çox uzun nanoborular düzəldə biliblər.

«Bizim divar kağızlarımız möhkəm və elastikdir, onları istənilən kimi boyamaq mümkündür. Onlar oda, istiliyə davamlıdır və yanğın təhlükəsi barədə xəbərdarlıq edir», - deyə tədqiqat qrupunun rəhbəri Yin Çje Çju bildirib.

# Yaddaşı möhkəmləndirən çip

ABŞ-ın Cənubi Kaliforniya Universitetinin alimləri yaddaşı möhkəmləndirən çipi insan beyninə uğurla implantasiya etməyə müvəffəq olublar. Alimlər tərəfindən layihələşdirilən xüsusi çip informasiyanın yadda saxlanması zamanı insan beyninin impulslarını «ələ keçirir». Bundan sonra çip həmin impulsları gücləndirir, faktiki olaraq beyini təkrara məcbur etməklə yaddaşın işini yaxşılaşdırmağa kömək edir.

Çip könüllülərin iştirakı ilə hazırlanıb. Onların hippokampına (beynin yaddaşa görə məsul sahəsi) elektrodlar implantasiya edilib. Alimlər elektrodların köməyi ilə sinir impulslarının istiqamətini müşahidə edərək xüsusi alqoritm yaratmağa nail olublar. Alqoritm bu və ya digər xatirələrə uyğun gələn sinir impulslarından istəniləni seçə, yaza və oxuya bilir.



Alimlər çipin hazırda geniş yayılmış alsqeymer, demensiya və digər xəstəliklər üzərində tamamilə qalib gəlməyə imkan verəcəyini düşünürlər.

cəmiyyət

# Azərbaycan beynəlxalq xeyriyyə bazarında

İspaniyada fəaliyyət göstərən Diplomatların Beynəlxalq Assosiasiyasının (AİDE) təşkilatçılığı ilə Madriddə növbəti XXIII «KERMES 2018» beynəlxalq xeyriyyə bazarı keçirilib. Tədbirdə 50-dək ölkənin İspaniyadakı diplomatik nümayəndəliyi milli mədəniyyətlərini, mətbəxini və musiqisini nümayiş etdirib.




Tədbirdə açılış nitqi ilə çıxış edən AİDE-nin hazırkı prezidenti, Azərbaycanın İspaniyadakı səfirinin xanımı Mehriban Məhərrəmova AİDE-nin məqsədləri və fəaliyyəti haqqında, eləcə də təmsil etdiyi Assosiasiya ilə Kraliça Sofiya Fondu arasında uğurlu əməkdaşlıqdan bəhs edərək, öz dəstəyini Assosiasiyaya göstərən AİDE-nin fəxri prezidenti Kraliça Sofiyaya təşəkkürünü bildirib.

Daha sonra tədbir iştirakçıları həmyerlimiz, prezident təqaüdçüsü, Kraliça Sofiya Ali Musiqi Məktəbinin tələbəsi Elvin Qəniyevin ifasında Qara Qarayevin «Yeddi gözəl» baletindən «Vals» və «Karmen» əsərindən bir parçanı dinləyiblər.

Bazarı ziyarət edən kraliça Sofiya Azərbaycanın İspaniyadakı səfirliyinin təşkilatçılığı ilə quraşdırılan stendə yaxınlaşıb və burada nümayiş olunan milli-mədəni dəyərlərimizi əks etdirən nümunələrə marağını ifadə edib. Azərbaycan stendində kraliça Sofiyaya böyük həvəslə oynadığı milli ornamentlərimizlə bəzədilmiş əl işi olan nərd və bəyəndiyi neft boyası ilə rənglənmiş rəsm əsəri hədiyyə edilib. Azərbaycan stendində nümayiş olunan ölkəmizin milli şirniyyatları, o cümlədən paxlava, şəkərbura, həmçinin yeməklərimizdən plov, kükü, dovğa, qutablar, yarpaq dolması, lavaş, milli ornamentləri əks etdirən suvenirlər, kəlağayı, geyimlər sərgi iştirakçılarında böyük maraq doğurub.

Azərbaycan stendində satışa çıxarılmış bütün məhsullar, xüsusən milli yeməklərimiz qısa vaxtda digər ölkələrin iştirakçıları və ziyarətçilər tərəfindən həvəslə alınıb. Qeyd edək ki, xeyriyyə bazarından əldə olunan bütün vəsait Kraliça Sofiya Fondunun hesabına köçürüləcək. Həmin vəsait alzheymer xəstəliyindən əziyyət çəkən insanların müalicəsinə sərf olunacaq.

tədqiqat

# Neyroimplantat yaddaşı gücləndirir

ABŞ alimləri beyinin elektromaqnit aktivliyini qeydə alan, emal edən və canlandıran neyroimplantat vasitəsilə qısamüddətli yaddaşı 35 faiz yaxşılaşdırmağın mümkünlüyünü sübut ediblər.

Tədqiqat işi ABŞ Müdafiə Nazirliyinin Qabaqcıl Müdafiə Elmi-Tədqiqat Layihələri Agentliyi tərəfindən maliyyələşdirilir. Neyroimplantat beyinin elektromaqnit aktivliyini tanıyır, yaddaşdan xatirələrin düzgün çıxarılması ilə müşayiət olunan nümunələri ayırır və onları canlandıraraq ayrı-ayrı neyron qruplarını zəif elektrik impulsları ilə stimullaşdırır.

Tədqiqatda epilepsiya diaqnozlu və xəstəliklə əlaqədar qısamüddətli yaddaşını itirən 15 nəfər iştirak edib. Neyroimplantat digər əməliyyat aparılan zaman onların beyninə daxil edilib. Hippokampa (Limbik sistemin bir hissəsi olmaqla məlumatın saxlanılmasında böyük rol oynayır) yerləşdirilən implantatlar eksperiment iştirakçılarının qısamüddətli yaddaşını orta hesabla 35 faiz yaxşılaşdırıb.

Tədqiqat müəlliflərindən Robert Hempson bundan əvvəl heyvanlar üzərində uğurlu eksperimentlərin keçirildiyini bildirərək neyroimplantatın insanlar üzərində bu dərəcədə effektiv işləməsinə təəccübləndiyini gizlətməyib.

## Müdriklər deyib ki...



***«Səbrin və zamanın insana verdiyi - gücün və ehtirasın verdiyindən daha böyükdür».***

***Lafonten (1621-1695)***